www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2018-ci il Çərşənbə № 181 (7070) Qiyməti 60 qəpik

**Xəbər**

**Avqustda baş verən qırğın kimi avtoqəzalar - 51 ölü, 203 yaralı...**

yazısı səh.10-da

**Gündəm**

**Prezident İlham Əliyevin Rusiya səfərində əsas gözlənti**



İki ölkə arasında münasibətlər yeni mərhələyə keçir; politoloq: "Səfər böyük perspektivlərə yol aça bilər..."

yazısı səh.9-da

**ABŞ-ın səfir təyinatı noyabrdan sonraya qala bilər - səbəblər**

yazısı səh.4-də

**Güzəştli mənzillərin satışına bir həftə qaldı - qiymətlər**

yazısı səh.7-də

**Azərbaycan ətrafında anti-Amerika "üçlüyü"**

yazısı səh.4-də

**Ölkəmizin 30 min ton qızılı harada saxladığı bilindi**

yazısı səh.10-da

**Lerikdə güclü zəlzələ**

yazısı səh.2-də

**İlqar Məmmədovun partiyasına "axın"a müxalifətdən reaksiya**

yazısı səh.6-da

**Əsgərlərimizin olduğu Əfqanıstanda müharibə fitilini kim çəkir?**

yazısı səh.12-də

**Yay turizmi bitdi - daha çox ərəb və iranlılar gəldi-getdi**

yazısı səh.13-də

**Xarici borcumuzu belə qaytaracağıq: yeni strategiya**

yazısı səh.14-də

**Bayıl yamacında son durum: əhali qazın bərpasını istəyir**

yazısı səh.15-də

# ELMAR VƏLİYEVİN İŞDƏN ÇIXARILMA SƏBƏBLƏRİ - GƏNCƏDƏ YENİ DÖNƏM BAŞLAYIR

İqtidar sabiq başçıya son jestini etdi; onun ayağa qalxmasını gözlədi və Elmar Vəliyevlə bundan sonra vidalaşmağı lazım bildi; yeni icra başçısı Niyazi Bayramov haqda müsbət rəylər var




yazısı səh.3-də

## Ermənistanda yeni bahalaşma dalğası - Paşinyan seytnot durumda

Gürcüstan üzərindən işğalçı ölkəyə taxıl daşınması qadağan edildi; qiymətlərdən narahat olan baş nazir qəfildən bazara getdi; təzə hakimiyyəti bürkülü payızla yanaşı, "qaynar" qış gözləyir - səbəb...

yazısı səh.8-də



**"Sovetski"də Abutalıbovu axtarırlar**

yazısı səh.7-də



*Qubad İbadoğlu:*

**"Hökumətin manatın məzənnəsində dəyişiklik edəcəyini gözləmirəm"**

yazısı səh.5-də



*Duqin:*

**"5 rayon Azərbaycana verilməsə..."**

yazısı səh.11-də

# Çavuşoğlu Amerikanı hədələdi

**Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu ABŞ-ın S-400-lərlə əlaqəli təzyiqlərinə cavab verib.**



Modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, Türkiyə XİN rəhbəri ABŞ-ın özünü kovboy filmlərindəki kimi aparacağı təqdirdə cavabını alacağını söyləyib.

O, yaranmış F-35 gərginliyini nümunə göstərərək ABŞ-a güvənə bilməyəcəklərini də qeyd edib.

"Hava sərhədlərimizi qorumalıyıq, hər kəsdə raketlər var. Bu bizim borcumuzdur. Bunu başa düşməlidirlər. Bəs bizə "Patriot" satmaq barədə zəmanət verə bilirlər. F-35 layihəsinin ortağıyıq, bəzi hissələri Türkiyədə istehsal edilir. Beynəlxalq hüquq var. Kovboy filmlərindəki kimi istədiyimi edəcəyəm söyləyərsə, bunun bir qarşılığı olacaq. Özlərinə də bunu söylədik" - deyə Çavuşoğlu bildirib.

Nazir həmçinin Türkiyənin Rusiya ilə əlaqələrini ABŞ-a alternativ olmadığını söyləyib.

Onun sözlərinə görə Türkiyə balanslaşdırılmış xarici siyasət yeritməyə çalışır.

Qeyd edək ki, Türkiyənin xarici işlər naziri hazırda Litvada rəsmi görüşlər keçirir.



## Şəhriyar Məmmədyarov üçün sponsorluq təklifləri

**Azərbaycanlı şahmatçı Şəhriyar Məmmədyarovun qalmaqallı statusundan sonra ona sponsorlar tərəfindən çoxlu sayda müraciətlər ünvanlanıb. Modern.az saytı xəbər verir ki, bu barədə Şahmat Federasiyasının mətbuat katibi Sənan Şəfizadə bildirib. O deyib ki, iki bank, qida sektorunu təmsil edən bir şirkət, bir otel onunla sponsorluq müqaviləsi imzalamağa hazırdır:**

"Menecerinə yönəltmişik, yəqin nəticəsi müsbət olacaq. Bir şirkət üç il müddətinə onun şəxsi saytını pulsuz idarə etmək, eləcə də, dizaynını yeniləməyi təklif etdi. Təkliflər az deyil. Sadəcə, çox istərdim ki, Şəhriyarın sponsoru dünya brend şirkətlərindən biri olsun".

Qeyd edək ki, Azərbaycanın məşhur şahmat qrossmeysteri Şəhriyar Məmmədyarov sponsoru olmadığına görə yarışlara öz pulu hesabına getdiyini, artıq yorulduğunu bildirib.

## Bakıda manyak saxlanıldı



**Bakı şəhəri, Xətai Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində rayon ərazisində ayrı-ayrı vaxtlarda iki qadına hücum edərək zərərçəkənlərin çantalarını soyğunçuluq yolu ilə ələ keçirməkdə şübhəli bilinən paytaxt sakini Amil Paşayev saxlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, araşdırma zamanı məlum ki, o, iyun ayı ərzində metronun "Əhmədli" stansiyasının yaxınlığında təsadüfən gördüyü qadınları izləyərək münasib bildiyi şəraitdə onların çantalarını açıq talama yolu ilə alaraq hadisə yerindən qaçıb. Qeyd edək ki, saxlanılan şəxsin ələ keçirdiyi çantaların birində 120 manat pul olub.

İstintaqın gedişi zamanı A.Paşayevin şübhəli davranışları polis əməkdaşlarında onun başqa cinayətlərdə əlinin olduğuna dair əsaslı şübhələr oyadıb. Bu səbəbdən A.Paşayevin ətrafında həyata keçirilən əlavə istintaq-əməliyyat tədbirləri ilə onun 2017-ci ilin dekadr ayından saxlanılan günə qədər Xətai rayonu ərazisində 4 azyaşlı qıza qarşı seksual xarakterli zorakılıq hərəkətləri etdiyi müəyyən edilib. Əsasən 10-15 yaş arasında olan qızları izləyən A.Paşayev binaların girişində mərtəbələr arasında yerləşən pilləkən sahələrində onlara hücum edərək seksual xarakterli hərəkətlər edib.

Faktla bağlı Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb.

## Lerikdə güclü zəlzələ olub

**Avqustun 28-də Lerik rayonu ərazisində 5.1 bal gücündə zəlzələ olub. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən virtualaz.org-a verilən məlumata görə, zəlzələ yerli vaxtla saat 16:57:14-də qeydə alınıb. Zəlzələ episentrdə 5 baldan çox, yaxın yaşayış məntəqələrində 4-3 bala qədər hiss olunub.**

## Bu həftədən yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsinə başlanılır

**Azərbaycanda bu həftədən - sentyabrın 1-dən vətəndaşlara yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsinə başlanılacaq. "Report"un xəbərinə görə, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha üstün olacaq.**

Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı (çip) yerləşdiriləcək. Bu vəsiqələr digər ölkələrin müvafiq orqanları ilə biometrik informasiya mübadiləsinin tənzimlənməsində müstəsna əhəmiyyət kəsb edəcək.



## Azərbaycanın ikinci peykinin buraxılış tarixi dəyişdirildi

**Azərbaycanın "Azerspace-2/Intelsat 38" ikinci geostasionar peykinin buraxılış tarixi cari il sentyabrın 7-dən 18-nə keçirilib.**

Bu barədə "Trend" "Arianespace" şirkətinin açıqladığı kosmik buraxılışların siyahısına istinadən məlumat verir.

"Azerspace-2/Intelsat 38" peyki "Ariane 5 ECA" raket-daşıyıcısı ilə buraxılacaq.

Həmin raket-daşıyıcı Azərbaycanın peyki ilə yanaşı, "Horizons 3e" peykini də aparacaq.

Qeyd edək ki, "Azerspace-2/Intelsat 38" 45 dərəcə şərq uzunluğunda geostasionar orbitə çıxarılacaq. Onun xidmət zonasına Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxil olacaq.

## Almaniyada etiraz aksiyalarında 6 nəfər xəsarət alıb

**Almaniyanın Xemnits şəhərində keçirilən etiraz aksiyalarında altı nəfər xəsarət alıb.**

RİA "Novosti" xəbər verir ki, polis həmin şəxslərin əks mövqedə olan etirazçı qruplardan olduğunu və bir-birinə əşyalar atması nəticəsində yaralandıqlarını bildirib.

Polisin məlumatına görə, dünən şəhərin mərkəzindəki etirazlarda təxminən 3 min adam, o cümlədən təxminən 2 min millətçi iştirak edib. Onların rəqibləri olan solçular isə aksiyaya minə yaxın tərəfdar toplayıb.

Xatırladaq ki, Almaniyanın şərqində yerləşən Xemnits şəhərində avqustun 26-na keçən gecə dava düşüb və nəticədə 35 yaşlı almaniyalı öldürülüb. Rəsmi təsdiqlənməmiş məlumata görə, davada miqrantlar iştirak edib. 35 yaşlı Almaniya vətəndaşının qətlində 23 yaşlı Suriyalı vətəndaşı və 22 yaşlı İraq vətəndaş şübhəli bilinir.



## Ermənistan Azərbaycanın KTMT-yə üzv olmasına qarşı çıxdı

**Əgər Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlük niyyətini bəyan etsə, Ermənistan veto haqqından istifadə edəcək. Virtualaz.org bildirir ki, bunu Ermənistan Xarici İşlər Nazirliyi mətbuat katibinin vəzifələrini icra edən Anna Naqdalyan keçirdiyi mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, KTMT-də olduğu kimi, Avrasiya İqtisadi Birliyində də qərarlar iştirakçı ölkələrlə müzakirələrdən sonra verilir.

Anna Naqdalyan xatırladıb ki, eyni zamanda, Azərbaycanın KTMT-yə üzv olma imkanları analitik dairələrdə müzakirə edilir.

"Əgər bu məsələ gündəmə gəlsə, Ermənistan veto hüququndan istifadə edəcək", - deyə Naqdalyan qeyd edib.



## Qazaxıstandan Neftçalaya yas yerinə gələn 43 yaşlı kişi özünü asdı

**Avqustun 28-də günorta saatlarında Neftçala rayonunun Qədimkənd kəndində intihar hadisəsi baş verib. Virtualaz.org-un Şirvan bürosunun məlumatına görə,1975-ci ildə anadan olmuş Əflatun Ərəstun oğlu Fərəcov özünü yaşadığı evin həyətindəki yardımçı tikilidə asaraq intihar edib.**

Əflatun Fərəcovun Qazaxstanda yaşadığı və dünyasını dəyişmiş anasının "40 mərasimi"ndə iştiak etmək üçün bir neçə gün əvvəl kənddəki ata evinə qayıtdığı deyilir.

Hələlik intiharın hansı səbəbdən baş verdiyi bilinmir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Müəllimlərin yay məzuniyyəti başa çatdı

**Azərbaycanda orta məktəb müəllimləri üçün yay məzuniyyəti başa çatıb. Modern.az saytının məlumatına görə, onlar sabahdan - 29 avqust 2018-ci il tarixindən işə çıxmağa başlayacaqlar.**

Yeni tədris ilinin yaxınlaşması ilə əlaqədər məktəblərdə dərs bölgüsü də aparılacaq.

Qeyd edək ki, Əmək Məcəlləsinin 118-ci maddəsinə əsasən, bütün ixtisas müəllimlərinə 56 təqvim günü müddətinə əmək məzuniyyəti verilir. Mövcud qanunvericiliyə əsasən, bilavasitə təlim-tədris prosesində iştirak edən pedaqoji işçilərə əmək məzuniyyətləri bir qayda olaraq yay tətili dövründə verilir.

Təhsil naziri Ceyhun Bayramov bir müddət öncə "Ümumtəhsil məktəblərinin 2018-2019-cu dərs ilinə aid tədris planlarının təsdiqi haqqında" əmr imzalayıb.

Nazirin əmrinə müvafiq olaraq, 2018-2019-cu dərs ilində də ümumtəhsil məktəbinin dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatacaq.

Dərs ili iki yarımilə bölünəcək: birinci yarımil - 15 sentyabr - 26 yanvar; ikinci yarımil - 1 fevral - 14 iyun.

Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilib:

5 gün payız tətili (16-20 noyabr);

5 gün qış tətili (27-31 yanvar);

İbtidai siniflər üçün 5 günlük əlavə yaz tətili (1-5 may).

## Türkiyə Kiprdə hərbi baza yaradır

**Türkiyənin hərbi dairələri Aralıq dənizində Ankaranın maraqlarının müdafiəsi üçün təcili surətdə Şimali Kipr Türk Cümhuriyyətində hərbi dəniz bazası yaratmaq istəyirlər.**

Bu barədə "Yeni Şafak" qəzeti Türkiyə hərbi dəniz qüvvələri komandanlığının XİN-ə göndərdiyi müraciətə istinad edərək məlumat yayıb. Qeyd olunur ki, Ankara həmçinin, Şimali Kiprdə əvvəllər türk hərbi aviasiyasının istifadəsində olan Keçidqala aviabazasının bərpa edilərək yenidən istismara verilməsinin mümkünlüyünü də nəzərdən keçirir.

Qeyd edək ki, Kipr adası 1974-cü ildən faktiki olaraq iki hissəyə bölünüb. Həmin ilin yayında yunan millətçilərinin qiyamından sonra adada yaşayan türklərin təhlükəsizliyini qorumaq məqsədilə Ankara tərəfindən 21 iyulda həyata keçirilən hərbi müdaxilə nəticəsində Türk Ordusu Kiprin 37%-nə, əsasən şimal hissəsinə nəzarəti ələ keçirib. 1983-cü ildə türk icmasının məskunlaşdığı həmin ərazilərdə Şimali Kipr Türk Cümhuriyyəti yaradılıb. Hazırda Şimali Kiprin müstəqilliyini Türkiyədən başqa dünyanın heç bir dövləti tanımır.(azvision.az)

**Avqustun 28-də prezident İlham Əliyev Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin işdən azad edilməsi ilə bağlı sərəncam imzalayıb. Elə həmin gün ölkə başçısı başqa bir sərəncamla Niyazi Bayramovu Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edərək Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı təyin edib. E.Vəliyev iyulun 3-də silahlı hücuma məruz qaldıqdan sonra başından ağır güllə yarası almışdı və iki aya yaxındır ki, müalicə olunurdu.**




# Elmar Vəliyevin işdən çıxarılma səbəbləri - Gəncədə yeni dönəm başlayır

## İqtidar sabiq başçıya son jestini etdi; onun ayağa qalxmasını gözlədi və Elmar Vəliyevlə bundan sonra vidalaşmağı lazım bildi; yeni icra başçısı Niyazi Bayramov haqda müsbət rəylər var

Elmar Vəliyevin işdən çıxarılması və digər vəzifəyə təyinat almaması onun səhhətindəki problemlərlə əlaqələndirilir. Son günlər saytlarda və sosial şəbəkələrdə onun müalicə aldığı tibb müəssisəsində sərbəst gəzməsini və yemək yeməsini əks etdirən video görüntülərin yayılması tezliklə yenidən iş başına qayıdacağı ehtimallarını artırmışdı. Amma belə görünür ki, E.Vəliyevin səhhəti onun yenidən icra başçısı kürsüsünə qayıtmasına imkan verməyib.

İkinci bir tərəfdən, ölkənin sayca 2-ci böyük şəhərində baş vermiş ağır dövləti cinayətlərdən sonra E.Vəliyevin yenidən "ağır yük" altına girməsi mümkünsüz görünürdü. E.Vəliyevin sui-qəsdən sonra sağlıq durumu normallaşsa da, belə görünür ki, hələ uzun müddət reabilitasiya dövrü keçməlidir.

Məsələnin digər və ən vacib tərəfi isə hakimiyyətin Elmar Vəliyevə sui-qəsddən çıxardığı nəticələrdir. Aydındır ki, baş verənlərdən sonra reputasiyası əvvəldən də "yaralı" olan, yerli əhalinin rəğbət bəsləmədiyi, hətta qıcıq yaradan birisini yenidən vəzifədə saxlamaq əvvəldən də iqtidarın planlına daxil deyildi. Sadəcə, iqtidar icra başçısına son vəfasını göstərdi, onun ayağa qalxmasını gözlədi və Elmar Vəliyevlə bundan sonra vidalaşmağı lazım bildi.

**Yeni icra başçısının dosyesi - Gəncədə işləyib**

Yeni icra başçısı Niyazi Bayramov 1956-cı il martın 26-da Bakı şəhərində anadan olub. 1980-ci ildə Bakı Dövlət Universitetini bitirib, ixtisasca hüquqşünasdır. 1980-1986-cı illərdə Vəkillər Kollegiyasının üzvü kimi 4 saylı Hüquq məsləhətxanasında vəkil işləyib. 1986-1992-ci illərdə Səbail Rayon İcra Hakimiyyətində şöbə müdiri, 1992-1995-ci illərdə Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifələrində çalışıb. 1995-1997-ci illərdə Dövlət Gömrük Komitəsinin sədri yanında İnspeksiyanın rəisi, 1997-2001-ci illərdə Gəncə Şəhər Gömrük İdarəsinin rəisi, Dövlət Gömrük Komitəsində Baş İdarə rəisinin müavini işləyib. 2009-2012-ci illərdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Qarabağ Regional Mərkəzinin, 2012-ci ildə Sumqayıt Regional Mərkəzinin rəisi, vəzifələrində işləyib. 14 aprel 2012-ci ildən 28 avqust 2018-ci ilədək Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb.

Yeni Azərbaycan Partiyasının üzvü olan Niyazi Bayramov ehtiyatda olan polkovnikdir, Qarabağ müharibəsinin iştirakçısıdır. Niyazi Bayramov gənclər və idman naziri Azad Rəhimovla qudadır. Belə ki, Azad Rəhimovun oğlu Arif Rəhimov Niyazi Bayramovun qızı ilə ailəlidir. Onların bir qız övladı var.


Azər Ayxan


Fazil Mustafa


Fəzail Ağamalı

**"Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan** son sərəncamları qəzetimizə şərh edib. O deyib ki, Elmar Vəliyev kimi kobud və söyüşcül bir kadrdan sonra Niyazi Bayramovun Gəncəyə icra başçısı təyin olunması müsbət haldır: "Eşitdiyimə görə, Niyazi Bayramov olduqca mədəni bir insan və təcrübəli kadrdır. Onunla bir neçə dəfə telefonla danışmışam. Mədəni, kübar adam təsiri bağışlayıb. Belə bir şəxsin Gəncə İcra Hakimiyyətinə başçı təyin edilməsi hakimiyyətin icra başçıları ilə bağlı son aylar yürütdüyü siyasətdə israrlı, ardıcıl olduğunun göstəricisidi. Kobud, bağırıb-çığıran kadrlar mədəni, işgüzar və təvazökar kadrlarla əvəz olunur. Niyazi Bayramov işgüzar, intellektual səviyyəsi yüksək olan kadrdır. O, müsbət işləri ilə seçilən və fərqlənən məmurlardandır. Jurnalistlə normal danışmağı bacaran, tabeçiliyindəki insanları aşağılamayan, münasibətlərdə etik qaydaları gözləyən, mədəni səviyyəsi yüksək olan, iş görmək qabiliyyətinə malik kadrların irəli çəkilməsi müsbət haldır. Fikrimcə, Niyazi müəllimin Gəncə kimi olduqca əhəmiyyətli bir şəhərə icra başçısı təyin olunması yaxşı haldır, təqdir olunmalıdır və bunun müsbət nəticələri yaxın aylarda özünü göstərəcək".

**Milli Məclisin deputatı Fazil Mustafa** "Yeni Müsavat"a deyib ki, Gəncə İcra Hakimiyyətinin rəhbərliyində dəyişiklik etmək prezidentin müstəsna səlahiyyətidir: "Gəncə kimi müəyyən problemlərin yaşandığı böyük bir şəhərin, bölgənin rəhbərinin dəyişdirilməsi oranın idarə olunmasına yeni bir kadrın gətirilməsinə qərar verilib. Ümid edək ki, Niyazi Bayramov Gəncədə uğurla işləyəcək, hər hansı bir problemlər yaranmayacaq, təkrar yaşanmayacaq, gələcəkdə Gəncədə hər hansı bir problemlərin yaşanmaması üçün qabaqlayıcı addımlar atacaq. Bütün hallarda prezidentin təyinatına hörmətlə yanaşmaq lazımdır".

**Deputat Fəzail Ağamalı** inanır ki, Niyazi Bayramov prezidentin ona göstərdiyi etimadı doğruldacaq: "Azərbaycanının 2-ci böyük şəhərinin, dövlətçiliyə, xalqın maraqlarına həmişə sədaqət nümayiş etdirən Gəncə əhalisinin hörmətini və məhəbbətini qazanacaq. Mən buna ümid edirəm. Ümid edirəm ki, o, olub-keçənlərdən özü üçün də müəyyən nəticələr götürəcək. Əlbəttə ki, o, Mingəçevirdə olduğu dövrdə orada hər hansı bir problem yaşanmayıb. Əminəm ki, həmin ənənəni daha böyük məsuliyyətlə Gəncədə daşıyacaq. Ona tapşırılan işin öhdəsindən uğurla gələcək".

**Fəzail Ağamalı Elmar Vəliyevin vəzifəyə təyinat almaması haqda bunları deyib:** "Mənim icra başçıları ilə, həmin postlarda olan soydaşlarımızla hər hansı bir şəxsi problemim yoxdur, olmayıb, ola da bilməz. Mənim söykənmiş olduğum fundamental prinsiplər, dəyərlər var. Bu, milli dövlətçilik ənənələridir. Bu gün ölkə prezidenti milli dövlətçiliyə çox yüksək nüfuz və rəğbət gətirməkdədir. Azərbaycan prezidenti hər kəsin bildiyi kimi dünyada nüfuz sahibidir, hər bir məmur da öz fəaliyyəti və davranışı ilə bu nüfuzun üzərinə nüfuz gətirməlidir. Bu qələbənin üzərinə bir töhfə də verməli, Azərbaycan xalqına təmənnasız olaraq xidmət göstərməlidir. Çünki ölkə prezidenti bunu dəfələrlə deyib ki, "Dövlət məmuru xalqın xidmətçisidir. Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidirlər". Məmurlar da ölkə başçısının bu fikirlərinə öz fəaliyyətlərində əməl etməlidirlər".

**Sonda onu da qeyd edək ki, avqustun 28-də prezident İlham Əliyevin imzaladığı digər sərəncamlarla İbrahim Mustafayev Gədəbəy Rayon İcra Hakimiyyətinin, Vaqif Həsənov isə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı təyin ediliblər.**

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 181 (7070) 29 avqust 2018

**Artıq beş aydır ki, ABŞ-ın Azərbaycanda səfiri postu boş qalıb. Vaşinqton hələ də Azərbaycana səfir təyin etməyib. Azərbaycanda çox ciddi maraqlarının olduğunu heç zaman gizlətməyən ABŞ-ın bölgədə geosiyasi mübarizənin şiddətləndiyi bir dövrdə Bakıya səfir təyinatını bu qədər yubatması ortaya suallar çıxarır. Səfir təyinatının yubanmasında hansı amillər rol oynaya bilər?**

# ABŞ-ın səfir təyinatı noyabrdan sonraya qala bilər



## Səfir təyinatının 5 aydır yubanmasının səbəbləri...

**Politoloq Natiq Miri** bildirdi ki, səfir təyinatının yubanmasının əsas səbəblərindən biri Donald Tramp administrasiyasının daxilində cərəyan edən vəziyyətdir: "Son zamanlara qədər müşahidə olunan ard-arda istefalar, dövlət katibinin dəyişilməsi faktiki olaraq belə mənzərə yaradıb ki, Tramp öz komandasını hələ də tam formalaşdıra bilməyib. Belə bir durum isə xarici ölkələrlə, o cümlədən Azərbaycan kimi ölkələrlə münasibətlərdə təsirini göstərir. Təkcə Azərbaycana deyil, digər bir sıra ölkələrə də səfir təyinatı gecikməkdədir. Problem Azərbaycanla münasibətlərdə hansısa anlaşılmamazlıqların olması deyil, problem Tramp administrasiyasının özündə və mükəmməl olmayan xarici siyasətindədir. Münasibətlərdə aydınlaşdırılmayan məqamların olması bu dəfə elə də böyük səbəb sayılmır. Bu dəfə səfir təyinatının gecikməsi yuxarıda dediyim səbəblərdən qaynaqlanır. Təyinatın gecikməsi idarəetmədə yaranan qüsurlar əsas rol oynayır. ABŞ-ın Azərbaycandan bəzi istəklərinin hələ də reallaşmaması isə səfir təyinatının yubanmasında qismən rol oynayır.

Noyabr ayına ABŞ-da konqressə seçkilər keçiriləcək. Tramp hökumətinin başı bu seçkilərə qarışıb. Məncə Azərbaycana da səfir noyabr seçkilərindən sonra təyin olunacaq".

*Bəs səfir təyinatı proseduru ABŞ-da necə həyata keçirilir?*

**Ekspert qeyd etdi ki, ABŞ-ın digər ölkələrə səfirlərin təyinetmə proseduru bir neçə mərhələlidir. Cari səfirin səlahiyyət müddəti başa çatmamışdan öncə, diplomat ölkəsinə qayıtmadan əvvəl onun yerinə təyin olunacaq adam müəyyən edilməlidir**: "ABŞ yeni səfirin təyin olunmasında mövcud administrasiyanın həmin ölkə ilə bağlı siyasətinin həyata keçirməsindən kənarda namizədlərin seçilməsində tətbiq olunan bir sıra standartlar mövcuddur. Birinci mərhələ olaraq namizədlərin seçilməsində işləyəcəkləri ölkələrin coğrafi, siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələri ilə məlumatlı, əlaqəli, bu sahələrin mütəxəssisləri olan kadrlar müəyyənləşdirilir və işləyəcəyi ölkənin rəhbərliyi ilə razılaşdırılır. İkinci mərhələ olaraq prezident səfir kimi namizədi irəli sürür. Üçüncü mərhələdə namizəd Senatın və Konqresin xarici əlaqələr komitəsində təsdiqlənir. Son mərhələ kimi ABŞ prezident və ya Dövlət Departamenti rəhbəri Senatın səfir kimi təsdiqlədiyi şəxsə etibarnaməni təsdiq edir. Lakin ABŞ-da uzun illərdir səfir təyinetmə prosesində prosedurlardan kənarlaşmalar müşahidə olunmaqdadır.

ABŞ-ın ölkəmizə təyin olunmuş və ya namizəd olmuş şəxslər həmişə ABŞ xarici siyasət strukturlarında Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndələr, regional münaqişələrin həllinə cəlb olunmuş qruplarda fəaliyyət göstərmiş şəxslər, regionlararası təhlükəsizlik və enerji nəqli sahəsi üzrə xüsusi nümayəndələr olan ali rütbəli xarici əlaqələr xidmətinin peşəkar diplomatları olublar.

Məsələn, Minsk Qrupunda çalışmış səfir Metyu Bryza Azərbaycanda səfir fəaliyyəti dövründə Qarabağ və regional münaqişələrə, həmçinin Ermənistan-Türkiyə-Azərbaycan münasibətlərinin həllinə daha çox diqqət ayırmışdı. Sırf bu istiqamətdə həyata keçirdiyi müstəqil və prinsipial fəaliyyətinə görə 2010-cu ildə Ağ Evdən Senata namizədliyi göndərilmiş Metyu Bryzanın nominasiyasını Senata çıxışı olan erməni lobbisi əngəlləmişdi.

Ardınca Azərbaycanda ABŞ-ın səfiri olmuş Enn Dersinin səfir kimi fəaliyyəti ilk növbədə iqtisadi problemlərlə həsr olunmuşdu və onun təyinatı dövründə Azərbaycana münasibətdə Vaşinqtonun başlıca prioriteti sırf iqtisadi məsələlər olduğundan, o daha çox böyük neft gəlirlərinin yerləşdirilməsi və xərclənməsinə nəzarət mexanizmi yaranmasında iştiraka həsr olunmuşdu.

Səfir Riçard Morninqstarın fəaliyyəti isə daha çox enerji ilə bağlı idi və Ağ Ev onun səfir kimi namizədliyini məhz Xəzərin enerji yataqlarının Avropaya nəqli uğrunda regional mübarizənin aktivləşdiyi bir məqamda irəli sürmüşdü. Bu təyinat həmçinin AB və Azərbaycan əlaqələrinin yeni, daha dərin müstəviyə qədəm qoyması ərəfəsində də olmasını da diqqətdən qaçırmaq olmaz. Ardınca isə ABŞ dövlət katibinin Enerji Resursları, Sanksiyalar və Ticarət məsələləri üzrə müavinin baş yardımçısı Robert Sekuta səfir göndərilmişdi. Səfir kimi onun fəaliyyəti dəyişmiş siyasi müstəvidə, regional enerji, iqtisadi və təhlükəsizlik məsələlərində də ABŞ və Azərbaycan arasındakı münasibətlərin, strateji enerji nəqli layihələrinə təhdidin qarşısının birgə alınmasından ibarət oldu.

Növbəti səfirin isə regional təhlükəsizlik məsələləri üzrə məşğul olmuş, bu sahəyə bağlı olan şəxs olacağını ehtimal etmək mümkündür".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Azərbaycan ətrafında anti-Amerika "üçlüyü"

## Türkiyə, İran və Rusiya liderlərinin görüşündə ABŞ-a qarşı ortaq taktika seçilə bilər

**Gələn ayın ilk yarısında Tehranda Türkiyə, Rusiya və İran prezidentlərinin görüşü keçiriləcək. Görüşün Suriya böhranı ilə bağlı olduğu deyilsə də, bu istiqamətdə bir çox müzakirələr açılıb. Müzakirələrin əsasını isə üç ölkənin Amerikaya qarşı koalisiya yarada biləcəyi yönündədir.**

Belə iddialar var ki, Türkiyə, Rusiya və İran prezidentləri Suriya böhranından daha çox Amerika tərəfindən üzləşdikləri sanksiyaları müzakirə edəcəklər. Həmçinin Birləşmiş Ştatlara qarşı direniş göstərmək üçün "üçlk" formatında birlik yaratmağın yollarını arayacaqlar. Azərbaycan da gedən müzakirələrin mərkəzi xəttində yer alır. Buna səbəb rəsmi Bakının koalisiya yaradılacağı təqdirdə hansı seçimi edə biləcəyi yönündə yaranan suallardır. Eyni zamanda "Üçlər ittifaqı" yaranarsa, bunun gərginliyi azaldacağı yoxsa artıracağı yönündə fikirlər meydana çıxıb.

**Politoloq Əhəd Məmmədli** koalisiyanın yaranması üçün ilkin şərtlərin formalaşdığını bildirdi: "Türkiyə, Rusiya və İran son illərdir sıx əməkdaşlıq edir. Həm siyasi, həm iqtisadi, həm də hərbi sferalarda bu əməkdaşlığın inkişafını görürük. Suriya məsələsində baxmayaraq ki, Türkiyə Əsəd rejiminə qarşıdır, amma bu çətin məsələdə də Türkiyə, İran və Rusiya ilə danışıqlar aparır. Suriya məsələsində Türkiyə-Rusiya-İran, İraq məsələsində də Türkiyə-İran əməkdaşlıq edirlər. Şimali İraqda kürd dövlətinin yaranmasının qarşısını məhz Türkiyə ilə İran birlikdə aldılar. Amerika, İsrail və Almaniyanın kürd dövləti projesi iflasa uğradı. ABŞ-ın Türkiyəyə qarşı apardığı siyasətin nəticəsində neçə müddətdir artıq Türkiyə, İran və Rusiya tərəfindən anti-ABŞ koalisiyası var və get-gedə bu koalisiya mövcudluğunu artırmaqdadır. AK partiya Türkiyədə iqtidara gələndən sonra, xüsusən də iqtisadi yöndə Türkiyə-İran yaxınlaşması başladı. Türkiyə İranın ən yaxın ticarət partnyoruna çevrildi. Blokadaya rəğmən, Türkiyə İran neftini alırdı. Rza Zərrab şousu məhz buna görə baş verdi. ABŞ indiki siyasətini davam etdirsə, Türkiyə-İran-Rusiya koalisiyası daha ciddi arealı əhatə edəcək. Türkiyə, İran və Rusiya Suriyadan ABŞ-ı tam çıxara da bilər. Eyni zamanda



Türkiyə, İran və Rusiya birdəfəlik kürd projesini bağlaya bilərlər. Bu üç dövlət ABS və İsraili Yaxın Şərqdə təsirsiz hala da sala bilərlər. Amma bunun üçün gərək onlar ilk növbədə bir-birlərinə inansınlar, etimad etsinlər. Türkiyə-İran-Rusiya ittifaqı qurulsa, bu ən azı regionda dəngələri dəyişəcək. Anti-amerikan koalisiyası artıq var, sadəcə, bu koalisiyanın ittifaqa çevrilməsi söhbət mövzusudur. Türkiyə-İran-Rusiya üçbucağının qurulması Azərbaycanın xeyrinədir. Bu üçlüklə Azərbaycan tarixi çox sıx bağlıdır. Tarixə baxsaq görərik ki, Türkiyə-Rusiya yaxınlaşması Azərbaycanın xeyrinə olub. Məhz bu yaxınlaşmanın hesabına 1920-ci illərdə Qarabağla, Naxçıvan Azərbaycanın ərazisi kimi qaldı. Növbəti Türkiyə-Rusiya yaxınlaşması Azərbaycana işğal olunmuş torpaqlarını qaytarmaq tarixi şansı yarada bilər".

**Politoloq fikirlərinə bu cür davam etdi**: "İndiki vəziyyətdə Azərbaycan maraqlı olmalıdır ki, Türkiyə-İran-Rusiya əməkdaşlığı inkişaf etsin. Hazırda Azərbaycanı bu koalisiyaya dəvət edilməsi inandırıcı görünmür. Heç buna ehtiyac da yoxdur. Dəvət gəlsə belə, Azərbaycan xarici balanslaşmış siyasətindən imtina edən deyil və düzgün də edər. Azərbaycan ayrılıqda Türkiyə-İran-Rusiya üçlüyü ilə çox sıx əməkdaşlıq edir. Biz balaca ölkəyik, Türkiyə-İran-Rusiya isə böyük dövlətlərin koalisiyasıdır. Bu koalisiya regiondan ABŞ-ı çıxartmaq gücündədir. Necə ki, Suriya və İraqda ABŞ-a güc göstərdilər. Bu gücü daha miqyaslı şəkildə göstərə də bilərlər. Amerika üçün Türkiyə-İran-Rusiya koalisiyası çox ciddi mesajdır. ABŞ onsuz da öz siyasəti ilə təkcə Türkiyə, İran, Rusiyanı deyil, Çin, Avropa Birliyi, Britaniyanı da qarşısına alıb. Amerika bu siyasəti ilə İsrailə, sionistlərə görə bütün dünyanı qarşısına almağa hazırdır. Fikrimcə, ABŞ nə etmək istədiyini heç özü də bilmir. ABŞ elitaları arasında qarşıdurma davam edənə qədər Trampın nə etmək istədiyini, nə edəcəyinə heç kəs dəqiq cavab verə bilməz. Əslində Trampın nə etmək istədiyi bəllidir. Tramp biznesmendir. Onun üçün əsas Amerikanın daxili rifahıdır və daxili rifaha da nail olur. Tramp əsl biznes adamı kimi Avropanın təhlükəsizliyini pulsuz qorumağı istəmir. O, Avropa liderlərinə deyir: istəyirsiniz sizi Amerika Rusiyadan qorusun, bunun üçün pul verin. Bu təfəkkürlə siyasətdə indiyə qədər qurulan bütün dəngələri alt-üst edir. Ona görə dünyada belə gərginlik, qeyri-müəyyənlik sürür. Və bir də artıq dünya bir və ya ikiqütblü deyil. Dünya çoxqütblüyə qayıdır. Bu da dünya üçün müsbət haldır. Və bu çoxqütblüyə qayıdışın səbəblərindən biri də Türkiyə-Rusiya-İran kimi ölkələrinin koalisiyasının qurulmasıdır. Və bu çoxqütblü dünyaya Azərbaycan hazır olmalıdır və orada öz yerini tutmalıdır. Təbii üçlü format vəziyyətin daha da gərginləşməsinə gətirib çıxaracaq. Bu üçlük Amerikaya güc göstərməyə qadirdir. Bu üçlükdə olan ölkələr tək başına Amerikanın təzyiqi qarşısında dura bilibilər. 40 ilə yaxındır Amerika İranı blokadada saxlayır, son illərdə Türkiyəyə, Rusiyaya sanksiyalar tətbiq etdi, amma heç bir halda amerikalılar istədiyinə nail olmadılar. Yenidən qurulan çoxqütblü dünya Amerikaya qarşı birləşir. İndiyə qədər heç bir dövlət təkbaşına bütün dünyaya qalib gəlməyib. Amerika da qalib gəlməyəcək. Amerika çoxqütblü dünyanın ən yaxşı halda bir qütbü olacaq. Tək və ikiqütblü dünyanın sonunun şahidiyik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 181 (7070) 29 avqust 2018

# “Hökumətin manatın məzənnəsində dəyişiklik edəcəyini gözləmirəm”

## Qubad İbadoğlu: “Rusiyada gedən proseslər Neft Fondunun sərmayələrini ciddi təhlükə qarşısında qoyur”

**Azərbaycanın beynəlxalq səviyyədə tanınan, nüfuzlu ABŞ universitetlərində tədrislə məşğul olan iqtisadçı-alimi Qubad İbadoğlu ölkə və region iqtisadiyyatında baş verən proseslərə özünəməxsus yanaşması ilə seçilir. Bu səbəbdən onunla söhbətimizdə dünya iqtisadiyyatında baş verən proseslərdən tutmuş, Azərbaycan əhalisinin diqqətində olan iqtisadi hadisələrədək çoxsaylı məsələlərdən bəhs etdik.**

***- Qubad bəy, ABŞ-ın iqtisadi sahədə son addımlarını, xüsusilə də bütün tərəflərlə, hətta müttəfiqləri ilə də iqtisadi savaşa başlamasını necə qiymətləndirirsiniz? Bu prosesin hansı tərəf üçün mənfi nəticələnə bilər?***

- Beynəlxalq Valyuta Fondu ötən ay dünya iqtisadiyyatının inkişaf prespektivlərinə dair növbəti hesabatını açıqlayıb. Proqnoz xarakterli sənəddə göstərilirdi ki, 2018-2019-cu illərdə qlobal iqtisadi artım 3,9 faiz olacaq. ABŞ-da iqtisadi artım 2018-ci ildə 2,9 faiz, 2019-cu ildə isə 2,7 faiz proqnozlaşdırılır. Bu ölkədə işsizlik səviyyəsi son 50 ilin ən aşağı həddinə düşüb. Bu, hesab edirəm ki, Trampın həyata keçirdiyi vergi-tarif siyasətinin nəticəsində əldə olunan göstəricidir. Qeyd etmək lazımdır ki, bütövlükdə digər zonalarda, o cümlədən Avrozonada iqtisadi artım tempi bu il də, gələn il də ABŞ-dan aşağı gözlənilir. Bu baxımdan, ABŞ iqtisadiyyatı son 2 ildə daha sürətlə böyüməyə başlayıb.

ABŞ-ın yeni hakimiyyəti bu şəraitdə dünya iqtisadiyyatı üçün maliyyə şərtlərini ağırlaşdırır və ticarət gərginliyini artıran siyasətə üstünlük verir. Bu da ondan irəli gəlir ki, ABŞ-da iqtisadi artım, işsizliyin aşağı səviyyəsi son nəticədə onun dünya iqtisadiyyatındakı hökmran mövqeyini daha da gücləndirib. Sadəcə olaraq, son vaxtlar bu hökmran mövqedən siyasi təzyiq, təsir vasitəsi kimi daha çox istifadə olunur. Bu, əvvəllər də olub. Lakin əvvəllər bu siyasət bu qədər açıq şəkildə həyata keçirilməyib. ABŞ özünün iqtisadi hökmranlığından istifadə edərək həm Rusiyaya, həm Çinə, həm də İrana qarşı ticari müharibə başladıb, iqtisadi sanksiyalar tətbiq edir. Eyni zamanda, digər ölkələrlə də ticari münasibətlərini yenidən dəyərləndirir. Rusiya iqtisadiyyatı neftdən əldə etdiyi gəlirlər hesabına bu ili artımla başa vuracaq - təxminən 1,7 faiz iqtisadi artım gözlənilir. Gələn il üçün artım tempinin zəifləyəcəyi gözlənilir. Burada Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiyalar da əhəmiyyətli rol oynayır.

Ticari müharibənin təsirlərinə gəlincə, bundan ilk növbədə Çin iqtisadiyyatı daha çox zərər çəkir. Bu ölkədə də iqtisadi artım tempi aşağı düşür. Ötən ili 6,9 faizlik artımla başa vuran Çində bu il 6,6 faiz, gələn il isə 6,4 faiz iqtisadi artım proqnozlaşdırılır. Ticari müharibə Çinin sürətlə böyüməsinin qarşısının alınması üçün həyata keçirilən ssenarinin tərkib hissəsidir. Çinin iqtisadi artım tempini təsəvvür etmək üçün bir müqayisəyə diqqət yetirək: 1992-ci ildə Rusiyanın ÜDM-i Çinin ÜDM-dən 11 faiz çox idi. Hazırda isə Çinin ÜDM-i Rusiyanın ÜDM-dən 35 dəfə çoxdur. Çinin belə sürətlə böyüməsi ABŞ-ı narahat edən əsas tendensiyalardan biridir.

Rusiya və İrana gəlincə, burada siyasi faktorlar daha çox önə çıxır, nəinki iqtisadi faktorlar.

Düşünürəm ki, qısamüddətli dövrdə baş verənlərdən qazanan hələ ki, ABŞ-dır. Orta və uzunmüddətli dövrdə, düşünmürəm ki, proses olduğu kimi qalacaq. Xüsusilə ABŞ üçün itkilər olacaq. Bu ölkədə inflyasiya prosesləri sürətlənir. Qiymətlərin artım tempi sosial problemlərin artmasına, ailə büdcəsinin xərclərinin çoxalmasına gətirib çıxaracaq. Artıq bu fəsadlar ABŞ iqtisadiyyatında özünü büruzə verməkdədir: işsizlik aşağı olsa da, inflyasiya tempi artır.

***- Azərbaycanın 3 böyük qonşusunda ABŞ sanksiyaları üzündən ciddi iqtisadi problemlər yaranıb, milli valyutaları dəyərdən düşüb. Bunun Azərbaycana təsirləri olacaqmı? Xüsusilə manata.***

- Təbii ki, qonşu ölkələrdə baş verənlər Azərbaycan iqtisadiyyatına təsirsiz ötüşmür. Çünki qonşu dövlətlər, xüsusilə Rusiya və Türkiyə Azərbaycanın əsas iqtisadi tərəfdaşlarıdır. Bu tərəfdaşlıq xüsusilə idxalda özünü daha çox göstərir. Bu ilin yeddi ayında idxalın 31 faizi Rusiya və Türkiyənin payına düşüb - 16 faiz Rusiya, 15 faiz isə Türkiyə. İdxalın artmasına həmin ölkələrdəki iqtisadi proseslər təkan verir. Belə ki, həmin ölkələrdə qiymətlər valyuta ilə nisbətən aşağıdır. Bu isə ixracatı stimullaşdırır. 2018-ci ilin yanvar-iyun ayları ərzində idxalımız ötən ilin eyni dövrü ilə müqayisədə 37 faiz artıb. Bu isə o deməkdir ki, daxildə qazanılan kapital, əlavə dəyər ölkədə qalmır, xarici ölkələrə qaçır. Onun əvəzinə idxal məhsulları əldə edirik.

Son 6 ayda ixracatımızda neft-qaz və neft məhsullarının birlikdə payı 90 faizə çatıb. Əvvəlki dövrlə müqayisədə bu, yüksəkdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatında xarici şoklara həssaslıq getdikcə çoxalır. Xüsusilə İranda, Rusiyada, Türkiyədə milli valyutaların sürətlə dəyərsizləşməsi manata olan təzyiqləri artırıb, idxalı stimullaşdırıb, qeyri-neft məhsullarının ixracat qabiliyyətini aşağı salıb. Yəni ölkəmiz idxaldan, xarici faktorlardan daha çox asılı vəziyyətə düşüb. Bunun da əsas səbəbi bundadır ki, Azərbaycan manatının yalnız və yalnız ödəniş vasitəsi funksiyasından istifadə olunur. Tənzimləmə vasitəsi funksiyasından demək olar ki, istifadə olunmur. Azərbaycan manatının bütün bu təzyiqlərə baxmayaraq sabit saxlanılması, gedən proseslərə adekvat reaksiya verməməsi manatın bir iqtisadi alət olaraq tənzimləmə funksiyasından istifadə olunmamasının nəticəsidir. Manatın məzənnəsinin formalaşması Azərbaycanda mahiyyətini tamamilə itirib. Ona görə də nə dünyada, nə regionda gedən proseslərə reaksiya verilmir. Bu isə manatın nə vaxtsa devalvasiya olunması qorxusunu yaradır. Ən pisi də odur ki, qonşu ölkələrin valyutalarının ayda, yaxud ildə itirdiyini biz bir gündə itirə bilərik.



***- Payıza doğru Azərbaycanda dollara tələbatın artacağı deyilir. Sizcə, hökumət manatın bir qədər ucuzlaşmasına gedərmi?***

- Avqust ayı üzrə göstəricilər hələ məlum deyil, lakin Dövlət Neft Fondunun açıqladığı məlumatdan aydın olur ki, iyulda daxili bazarda valyuta satışı iyuna nisbətən 22 faiz artıb. Bu artımın avqust-sentyabrda və ondan sonrakı aylarda da davam edəcəyini düşünürəm. İlin sonunadək dollara tələbat daha da artacaq və ilin sonunda - dekabrda pik həddinə çatacaq. Çünki ilin sonunda valyutada olan xarici öhdəliklərin qarşılanması gərəkir. Eyni zamanda idxalın artması da valyutaya tələbatı stimullaşdırır. Amma buna baxmayaraq, hökumətin manatın məzənnəsində dəyişiklik edəcəyini gözləmirəm. Çox təəssüflər olsun ki, artıq biz digər ölkələrdəki kimi iqtisadi amillərlə milli valyutanın dəyərinin dəyişməsi praktikasına malik deyilik. Yəni dünya bazarında, ölkənin daxilində, iqtisadiyyatda baş verənlərə adekvat olaraq milli valyuta dəyərdən düşür, ucuzlaşır, yaxud bahalaşır - bu prosesi biz Azərbaycanda görmürük. Hökumət Azərbaycan manatını belə təsirlərdən qorumaq üçün demək olar ki, fiksə edilmiş sabit kursda saxlayır. Düşünürəm ki, bu, yanlış bir yanaşmçadır, sadəcə olaraq, bir avantüradır. Son nəticədə bu təzyiqlər arta-arta ilin sonunda pik həddə çatacaq. Bayaq qeyd etdiyim kimi, başqa ölkələrin bir ildə itirdiyini Azərbaycan manatı devalvasiya nəticəsində bir gündə itirə bilər. Biz artıq bunun iki dəfə şahidi olmuşuq.

Hesab edirəm ki, ən azı ilin sonunadək hökumət manatın sabit kursunu saxlamağa çalışacaq.

***- Azərbaycanda Aİ 95 və 98 benzinləri bahalaşdı. Bu markaları hamı varlıların benzini adlandırır. Amma onların bahalaşmasından sonra kütləvi istifadədə olan Aİ92-nin də bahalaşacağına dair ehtimallar gücləndi. Sizcə, bu benzin də bahalaşa bilərmi?***

- 95 və 98 markalı benzinlərin bahalaşması Aİ 92 markalı benzinin, dizel yanacağı və yanacaq-sürtkü materiallarının da bahalaşmasına gətirib çıxara bilər. Hesab edirəm ki, bunun üçün iqtisadi əsaslar da çoxdur. Bunlar arasında 95 və 98 markalı benzinlə 92 marka arasında, 92 marka benzinlə dizel yanacağı arasındakı qiymət fərqi var. Yəqin ki, hökumət də bundan istifadə edərək növbəti qiymət artımlarını əsaslandırmağa çalışacaq. Amma bu, qiymət artımı üçün yeganə əsas olmayacaq. Böyük ehtimalla, oktyabr ayında Bakı Neft Emalı Zavodunun irimiqyaslı təmirə dayandırılması da burada əsas rol oynayacaq. Çünki bunun nəticəsində Aİ 92 markalı benzinin xaricdən idxalına başlanması istisna olunmur. Bu, baş verərsə, qeyd olunan benzinin daxili satış qiymətinin idxal qiymətinə uyğunlaşdırılması lazım gələcək. Bundan əlavə, ölkəyə avtomobil idxalı da sürətlə artır. Belə ki, bu ilin yeddi ayında ödən ilin eyni dövrü ilə müqayisədə Azərbaycana gətirilən avtomobillərin sayında 2,6 dəfə artım olub - 4468 avtomobilə qarşı 11700 avtomobil. Hökumət həmçinin digər postsovet ölkələrində qiymətin bizdən yüksək olması arqumentindən də yararlana bilər ki, mən bunu yanlış hesab edirəm. Qiymət ucuz görünə bilər. Amma orta aylıq əmək haqqı ilə alınan benzin miqdarına baxanda Azərbaycan geridə qalır. Məsələn, Almaniyada orta aylıq əmək haqqı ilə 3 min litr, İranda 1840, Rusiyada 1003, Qazaxıstanda 920, Belarusda 679, Gürcüstanda 495, Türkiyədə 485, Azərbaycanda isə 350 litr 98 markalı benzin almaq mümkündür. Bu müqayisə göstərir ki, qiymət səviyyəsi müqayisə üçün əsas olmamalıdır.

***- Neft Fondunun 2017-ci il üzrə hesabatından aydın olur ki, qurum keçən il Türkiyə banklarına investisiyasını artırıb. Bunu nə qədər uğurlu investisiya hesab etmək olar?***

- Yalnız Neft Fondu deyil, ötən il Dövlət Neft Şirkəti də Türkiyə iqtisadiyyatına qoyuluşlarını artırıb. Bundan ən çox təsirlənən SOCAR olacaq. Çünki bu şirkətin əsas sərmayələri Türkiyədədir - son məlumatlara görə, söhbət 17 milyard dollardan gedir. Hazırda lirənin məzənnəsi tam sabitləşməyib.

Neft Fondunun cəmi investisiya portfelinin 1 faizi Türkiyə lirəsindədir. Hazırda Fondun portfelindəki əsas valyutalardan avro(cəmi vəsaitlərin 35,7 faizi), ingilis funt sterlinqi(5,1 faiz) məzənnəsini itirir. Yeganə dəyərini artıran ABŞ dollarıdır ki, Fondun vəsaitlərinin 47,1 faizi onunla saxlanılır. Rusiyada gedən proseslər də Neft Fondunun investisiya portfelinə təsir göstərir. Fondun Rusiyanın VTB bankında 500 milyon dollar payı var. Eyni zamanda Moskvada 133 milyon dollara ticarət mərkəzi alıb. Rusiyada gedən proseslər Fondun bu sərmayələrini də ciddi təhlükə qarşısında qoyur.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 181 (7070) 29 avqust 2018




# İbtidaidən aliyə və ya 1 necə 235 oldu

## (Müəllimliyi seçənlərdən maksimal nəticələr)

**Bu il İsmayıllı rayonunun təkcə 5 saylı tam orta məktəbindən iki abituriyent - 668 bal yığan Ceyran Aydınova və 665 bal toplayan Gülər Abbasova ingilis dili müəllimliyini seçiblər. Şəmkir rayonunun Düyərli kənd məktəbinin məzunu Təranə Əliyeva da 692 balla riyaziyyat müəllimliyini seçib. Bunlar təkcə qəbul statistikası deyil, həm də müəllim olmaq istəyənlərin keyfiyyət dinamikasıdır.**

Ümumiyyətlə, 18 təhsil ixtisası üzrə 3 il ərzində qəbul olunanların topladıqları ballar müəllimlik peşəsinin artan nüfuzunu kəskin fərqlə ortaya qoyur. Elə götürək ibtidai sinif müəllimliyi üzrə olan rəqəmləri. 2016-cı ilin qəbul imtahanlarında 500 və daha artıq bal toplayaraq ibtidai sinif müəllimliyini seçən cəmi 1 nəfər vardı. Builki qəbul imtahanlarda 500 və daha artıq bal toplayanlar arasında 235 nəfər abituriyent ibtidai sinif müəllimliyini seçib. Bu indiyədək təhsil ixtisas qruplarında ibtidai sinif müəllimliyini seçənlərin maksimal nəticəsidir. Məsələn, Dövlət Pedaqoji Universitetinin ibtidai sinif müəllimliyinə ötən il qəbul olunan 300 nəfər abituriyentin cəmi 29 nəfəri 500 və daha artıq bal toplamışdırsa, cari ildə bu ali təhsil müəssisəsinə həmin ixtisas üzrə qəbul olunan 300 nəfərin 129-u və ya 43 faizi 500 və daha artıq bal toplayıb. Bu, inqilabi nəticədir.

Hər il 5000 nəfərə yeni iş yeri...

Müəllimlik peşəsinin ilbəil nüfuzunun artması rəqəmlərdən də aydın görünür. Artıq insanlar qəbul edirlər ki müəllimliyi yüksək nəticələrlə bitirən məzun elə həmin ildə də yaxşı əmək haqqı ilə iş tapa biləcək. Özü də son 5 ildə Təhsil Nazirliyinin tam şəffaf imtahanlarından keçən müəllimə zaval yoxdur.

Başqa bir müqayisəyə diqqət edək. Səhv etmirəmsə, bu il hüquq ixtisasına 525 nəfər qəbul olunub. Müəllimlik ixtisaslarına isə 9623 nəfərin qəbulu aparılıb. Təhsil ixtisaslarına qəbul olunanların 2090 nəfəri və ya 21,7 faizi 500 və daha artıq bal toplayanlardır. Hüququ seçən 525 nəfərin nisbəti ilə müəllimliyi seçən 9623 nəfərin yüksək bal göstəricilərinin müqayisəsi fonu daha aydın göstərir.

Və... 500 və daha artıq bal toplayaraq riyaziyyat və informatika müəllimliyini seçən abituriyentlər ötən illə müqayisədə 70.8 faiz, xarici dil müəllimliyini seçənlər isə 25 faiz artıb. Ya da ki, ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500 və daha artıq nəticə göstərən abituriyentlər arasında 3 il əvvəl kimya müəllimi olmaq istəyən 43 abituriyent vardısa, bu il onların sayı 141 nəfər olub. Biologiya müəllimliyi üzrə də vəziyyət eynidir. Yüksək nəticə ilə 3 il əvvəl 13 nəfər, bu il isə 140 nəfər biologiya müəllimliyini seçib. Nəticə budur ki, bütün təhsil ixtisasları üzrə kəmiyyət və deməli keyfiyyət fərqi bəlidir.

**...Artıq müəllim olmaq rəqabətli seçim əsasında mümkündür. Bundan 5-6 il əvvəlki müəllim olmaq arzusu bir çox hallarda az bal toplayan abituriyentlərin seçiminə uyğun idisə, artıq göründüyü kimi müəllimlik mübarizəsinə güclülər qalib gəlir. Bu o deməkdir ki, müəllim cəmiyyətin ən nüfuzlu peşəsi kimi sürətlə mövqelərini bərpa edir, missiyasını yeni dövrün bucağına uyğun qurur. Yazının finalı Bakı şəhəri Texniki Humanitar liseyin məzunu, 559 balla Pedaqoji Universitetin ibtidai sinif müəllimliyini seçən Səmavil Cəbrayılovanın fikirləri ilə üst-üstə düşür: "Mən ibtidai sinif müəllimi olmaq la təhsilə təməldən baxmaq istəyirəm".**

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# İlqar Məmmədovun partiyasına axın-müxalifətdən reaksiya

**REAL Partiyasının sədri İlqar Məmmədov azadlığa buraxıldıqdan sonra rəhbərlik etdiyi təşkilata axın güclənib. Bu barədə modern.az-a partiyanın İdarə Heyətinin üzvü Natiq Cəfərli məlumat verib.**





**Sərdar Cəlaloğlu:** "REAL rəhbərliyi siyasətdə naşıdır"
**Tural Abbaslı:** "İlqar Məmmədovun personası ətrafındakı eyforik vəziyyət anlaşılandır"

**Sitat:** ""İlqar Məmmədovun azadlığa çıxması REAL-a üzv olmaq istəyənlərin sayına təsir edib. Təqribən son 15 gündə REAL-ın tarixində görünməmiş sayda onlayn müraciətlər daxil olub. Hətta müraciət sayının çoxluğu ilə bağlı saytımızda kiçik problem də yaşadıq, sonra onu həll etdik. Partiyamıza üzv olmaq istəyənlər arasında ictimai-siyasi həyatda aktiv olan insanlar yoxdur. Əsasən müraciət edənlər gənclər, tələbələr, yaşı 30-a qədər olanlar, müxtəlif peşə sahibləri, kiçik biznesdə çalışan insanlardır. Ümumiyyətlə, İlqar Məmmədov həbsdən azad olunan günə kimi REAL-ın 2300-dən çox rəsmi üzvü var idi. İndi yəqin ki, həmin rəqəm 4 minə yaxınlaşır".

REAL-a olan bu maraq çoxsaylı müzakirələr yaradıb. Bu daha çox demokrat düşərgə daxilində yeni müxalifətin formalaşması kimi qələmə verilir. Bu şəkildə davam edərsə, İ.Məmmədovun partiyasının digər siyasi partiyaları ötüb önə çıxacağı qeyd olunur. Həmçinin başqa müxalif qurumlardan qopmaların ola biləcəyi vurğulanır.

Siyasi partiyaların REAL-ın bu şəkildə güclənməsindən ehtiyat edib-etməmələri barədə maraqlandıq.

**ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, 3-5 min nəfərin bir partiyaya üzv olması axın deyil: "Axın o zaman ola bilərdi ki, yüz minlər partiyaya üz tutsunlar. Məsələn, Rəsul Quliyev partiyamıza rəhbər gələndə haradasa 15 min nəfər bizə üzv oldu. O zaman biz bunu axın adlandırmadıq. Nəticə də göz qabağındadır. Bu adamların küyə düşüb harasa gedib-gəlmələrinin heç bir mənası yoxdur. Süni sürətdə Amerikanın İlqar Məmmədovu prezident edəcəyi, yaxud onun xilaskar olması barədə görüntü yaratmağın heç bir əsası yoxdur. Səhəri gün İlqar Məmmədov Azərbaycan üçün heç bir şey edə bilməyəcəyi təqdirdə, gözləntiləri doğrulmadıqda bu onun əleyhinə çevriləcək. REAL rəhbərliyi siyasətdə naşıdırlar. Onlara məsləhət görərdim ki, gücləri çatmayan öhdəliklər götürməsinlər. Səhəri gün xalq verilən vədlərin yerinə yetirilmədiyini gördükdə tamam fərqli əks reaksiya verəcək. Doğrudur, ənənəvi müxalifət Azərbaycanda obyektiv və subyektiv səbəblərdən ciddi uğurlar qazana bilmədi. Bu baxımdan bəziləri düşünür ki, siyasətə yeni bir qüvvə gəlib. Ola bilsin ki, bu qüvvə nəsə edə bilsin. Amma bir reallığı unutmaq olmaz ki, Azərbaycanda siyasi proseslərin bu şəkildə getməsi müxalifət liderlərindən yaxud partiyalarından asılı bir məsələ deyil. Sadəcə, İlqar Məmmədov yeni bir siyasətçidir. Buna görə insanlar bir müddət yeni ümidlərlə onun partiyasına üz tuta bilərlər. Azərbaycanda bu cür təcrübələr az olmayıb. Vaxtı ilə belə bir yeni qüvvələr meydana az çıxmayıb, amma bu gün onların heç biri siyasi səhnədə belə qala bilməyiblər. Hər halda REAL-a uğurlar arzulayıram. Azərbaycanda ümumi bir siyasi gücün formalaşması müxalifətin də xeyrinədir. REAL-ı müxalifətə qarşı qoymaq yaxud müxalifətlə müqayisə etmək doğru deyil. Bu partiya iqtidarın deyil müxalifətindirsə, qazanacağı uğurlar müxalifətin ayağına yazılacaq. REAL-ın müxalifətə gəlməsini biz sadəcə alqışlaya bilərik. Bunu müxalifətin güclənməsi kimi dəyərləndiririk. Amma qeyri-real, fantastik vədlər vermək, xalqı xülyalara inandırmaq sonunda REAL-ın öz əleyhinə işləyəcək. Bunu onlara xəbərdarlıq edirəm. REAL-ın dediklərini həyata keçirməyə heç bir gücü çatmaz".

**S.Cəlaloğlu elektoratından REAL-a yönəlik qopmaların ola biləcəyinə inanmır**: "Bizim elektorat kifayət qədər siyasiləşib. Açığı deyim ki, üzvlərimizi boş-boş vədlərlə aldatmırıq. Bəzi müxalif qüvvələrin apardıqları təbliğatı tamamilə yanlış hesab etdiyimizə görə bu cür təbliğatları aparmırıq. Üzvlərimiz soyuq başla yaxşı dərk edirlər ki, müxalifətin əsas vəzifəsi hakimiyyətə gəlmək deyil, xalqın maraqlarını müdafiə etmək, dövlət müstəqilliyini qorumaqdır".

**AĞ Partiya başqanı Tural Abbaslı** REAL funksionerinin dediklərinə bu cür mövqe sərgilədi: "Natiq bəyin açıqlamalarını məlumatdan daha çox təbliğata hesablanmış bəyanat hesab edirəm. Mənim özüm artıq 19 ilə yaxındır ki, partiya sisteminin içindəyəm və rəhbərliyində təmsil olunmuşam. Yəni partiyanın strukturu, müraciətlər, yeni üzvlərin axını və ya azalması, bunların dönəmləri, barədə kifayət qədər təcrübəyə malikəm. Ən azından 2000-ci il parlament seçkiləri, 2003-cü il müxalifətin gücünün pik nöqtəsi olan prezident seçkiləri, bundan sonrakı repressiya dönəmi, 2005-ci il narıncı inqilablar dövrü və s. bu kimi Azərbaycan siyasi səhnəsinin dönüm zamanlarında partiya funksionerlərindən olmuş biriyəm. Odur ki, mən bəzi rəqəmlərə daha ciddi yanaşıram. Təbii ki, PR etmək hər kəsin öz işi və haqqıdır. Biz buna bir şey deyə bilmərik. Biz AĞ Partiya olaraq digər müxalif qurum və təşkilatların da güclü olmasının tərəfdarıyıq. Çünki müxalifət camiəsi nə qədər güclü olsa, dövlətdə demokratik dəyərlər bir o qədər tez oturuşar. Əvvəl də qeyd etmişdim ki, Azərbaycandakı hazırkı siyasi vəziyyət elədir ki, indiki məqamda hansısa siyasi şəxs və ya təşkilat təkbaşına heç nə edə bilməz. Hətta böyük müxalifət birliyi belə alınsa vəziyyəti müsbətə doğru dəyişmək xeyli vaxt aparacaq. Odur ki, mənim indiki halda heç kimdən xüsusi gözləntim yoxdur. İlqar Məmmədovun personası ətrafındakı eyforik vəziyyət isə anlaşılandır. Adam 5 ildən artıq həbsdə qaldıqdan sonra azadlığa qovuşub və qərb mətbuatının Azərbaycan bölmələrinin iştirakı ilə də onun ətrafında bəlli bir imic yaradılıb. Həmçinin 140-a yaxın siyasi məhbusun içərisində Qərb dairələrinin onu ayırması və daha çox diqqətdə saxlaması da insanlarda müəyyən gözləntilər yaradıb. Ancaq, siyasətlə məşğul olan insanlar bilirlər ki, bu gözləntilər həddindən artıq böyük olduğu üçün zamanla REAL-ın və İlqar bəyin əleyhinə işləməyə başlayacaq. Azadlığa çıxdığı gündən bu günə qədər olan zamana fikir versək görərik ki, artıq nisbətən əvvəlki eyforiya yoxdur. REAL rəhbərliyi bu situasiyanı yaxşı idarə edə bilməsə, gələcəkdə fəsadlarını yaşayacaq. İstənilən halda özünü müxalifət hesab edən bütün təşkilatlara uğur arzulayıram".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 181 (7070) 29 avqust 2018

# "Sovetski"də Abutalıbovu axtarırlar

## Bakının söküntü yükü baş nazirin müavininin üzərindədir, bəs o, haradadır?

**MMP sədri Hafiz Hacıyev mətbuata açıqlamasında yenidən keçmiş Bakı meri, hazırda baş nazirin müavini olan Hacıbala Abutalıbovun adını hallandırıb. H. Hacıyev mia.az saytına açıqlamasında bildirib ki, nə qədər ki, Hacıbala Abutalıbov kimi məmurlar var, ölkədə vəziyyət daha da ağırlaşacaq: "Hamısı deyir ki, hər şey yaxşıdır. Xeyr. Ciddi islahatlara başlamaq lazımdır ki, bu ağır durumdan çıxaq. Amma bir daha deyirəm ki, mən bu mübarizədə hər zaman prezident İlham Əliyevin yanında olacağam. Xəyanətkarlara imkan verməsəm ki, dövlətə, dövlətçiliyə, prezidentə zərbə vursunlar".**

Hafiz Hacıyevin müxtəlif məsələlərə görə Abutalıbovu günahlandırması, onun adını hallandırması ilk dəfə deyil. 2015-ci ildə də Hafiz Hacıyev paytaxtın Azadlıq prospektində yanan binaya görə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovu ittiham edib, onun bu işdə məsuliyyət daşıdığını söyləmişdi. O vaxt Abutalıbov Hafiz Hacıyevə cavab verərək, aşağıdakıları bildirmişdi: "Hafiz Hacıyev nə dediyini özü də anlamır. Mən o adamın nəyinə cavab verim? Hafiz Hacıyev dəlidir, axmağın biridir. Mən indi bu barədə onunla danışacam".

İndi isə Abutalıbov nəyin ki, Hafiz Hacıyevin fikirlərinə reaksiya vermir, ümumiyyətlə heç gözə dəymir, hər hansı bir tədbirdə görünmür. Halbuki yeni vəzifəsi ilə də onun üzərində az məsuliyyət yoxdur.



Yada salaq ki, aprelin 21-də prezidentin sərəncamı ilə yeni formalaşan Nazirlər Kabinetinin tərkibində 1995-ci ildən baş nazirin müavini vəzifəsində təmsil olunan Abid Şərifov yer almadı. Prezidentin sərəncamı ilə baş nazirin müavini vəzifəsinə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov təyin olundu. Daha sonra məlumatlar yayıldı ki, Abutalıbova A.Şərifovun yarımçıq qoyduğu işlər həvalə olunub.

Abid Şərifovun yarımçıq işləri isə əsasən Bakının iri məhəllələrində, qəzalı yerlərində söküntü işləri ilə bağlıdır.

Çünki Abid Şərifov baş nazirin müavini olduğu zaman şəhərdə söküntü-tikinti işləri ona həvalə olunmuşdu. Artıq bu işlərə Abutalıbov baxır. O, "Sovetski"dəki söküntü-tikinti işlərinə də cavabdehlik daşıyır. Məlumat üçün onu da qeyd edək ki, "Sovetski"də söküntünün növbəti mərhələsi aylardır ki, yubanır. Hələ də konkret olaraq bu işlərin nə zaman başlayacağı bilinmir. "Sovetski" sakinlərinin sözlərinə görə, Abutalıbov yeni vəzifəsinə təyin olunandan sonra məhəlləyə gəlməyib, sakinlərlə görüşməyib. Növbəti mərhələdə "Sovetski"də nə az, nə çox 2500-ə qədər evin sökülməsi nəzərdə tutulur.

Bundan əlavə, Bayıl yamacında sürüşmə zonasının sakinləri də aylardır ki, Abutalıbovu axtarırlar. Çünki onların bir qismi hələ Abid Şərifovun vəzifədə olduğu dönəmdə 11 aylığa kirayə mənzillərə çıxarılmaqla, evlərindən uzaq qalıblar. Digər qismi isə verilən kirayə pulu ilə razılaşmayıb, evlərini tərk etməyiblər. Evlərini tərk edənlər həm də gələcəkdə söküntü olarsa veriləcək kompensasiyanın az olacağından ehtiyat edib, narahatdırlar. Bu sakinlərin köçürülməsinə səbəb kimi ərazidə təhlükənin olduğu göstərilib. Lakin aylardır ki, orada hər hansı bir sürüşmə hadisəsi qeydə alınmayıb. Buna baxmayaraq, sakinlər evlərinə qaytarılmır...

Sakinlər hələ bu ilin may ayında "Yeni Müsavat"a müraciət edərək bildirmişdilər ki, onlar Hacıbala Abutalıbovun yolunu gözləyirlər. Öyrəndik ki, hələ də vəziyyət dəyişməz olaraq qalır.

**Bəs, Hacıbala Abutalıbov haradadır?**

May ayında məlumat yayılmışdı ki, Abutalıbov yeni vəzifəyə təyin olunsa da, köhnə işindən ayrıla bilmir və hər gün BŞİH-ə baş çəkir. Saytlardan biri isə onun avtomobilinin BŞİH-nin qarşısında fotosunu da paylaşmışdı. Xəbərdə qeyd olunurdu ki, H.Abutalıbov hər gün köhnə işinə baş çəkir. O, günün ilk yarısını Nazirlər Kabinetində, ikinci yarısını isə Bakı Şəhər İcra Hakimiyyətində keçirir.

Lakin Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli Hacıbala Abutalıbovun iş rejimi ilə bağlı fərqli fikirlər söyləmişdi. Belə ki, avqustun 20-də Akif Əli "report"a açıqlamasında Abutalıbovla bağlı aşağıdakıları vurğulamışdı: "Hacıbala Abutalıbov alimdir, Heydər Əliyev ideyalarına son dərəcə sadiq insandır. Siyasi fəaliyyətində böyük xidmətləri olub. Sonra icra strukturlarında işləyib, indi yenidən baş nazirin müavini vəzifəsinə təyin edilib. Hacıbala müəllim səmimi, ünsiyyətdə rahat insandır. Əməkdaşlar xüsusi olaraq qəbula yazılmadan ona maneəsiz müraciət edə bilirlər. Prezidentin yuxarı icra orqanı olan Nazirlər Kabinetində bu gün hamı kimi o da, tapşırıqların icrası istiqamətində var qüvvəsi ilə çalışır".

**Açıqlamadan belə aydın olur ki, Abutalıbovun ictimaiyyətdə görünməməsinin səbəbi, işinin başında olmasıdır...**

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Güzəştli mənzillərin satışına bir həftə qaldı-qiymətlər

## 1 otaqlı mənzillər üçün aylıq ödəniş 129-136, 2 otaqlılar üçün 203-236, 3 otaqlı mənzillər üçün isə aylıq ödəniş 282-288 manat olacaq

**Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində güzəştli mənzil satışının başlanmasına bir həftə qalır. Qurumun açıqladığı elandan aydın olur ki, kompleksdəki 1, 2, 3, 4 və 5 saylı binalarda mənzillərin satışı 5 sentyabr 2018-ci il saat 11.00-da başlayacaq və 5 dekabr 2018-ci il saat 11.00-dək davam edəcək.**

Qeyd edək ki, Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalında (www.e-gov.az) yaradılmış "Güzəştli mənzil" elektron sistemi vasitəsilə həyata keçirilir. Yalnız "Güzəştli mənzil" elektron sistemində kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqlara malikdir. Həmin şəxslər elektron kabinetlərində "Satış/Mənzillər" bölməsinə daxil olaraq "erkən gələnə erkən xidmət" prinsipi (satış



başladığı anda sistemə daxil olaraq mənzili ilk seçən şəxslər onu almaq imkanı əldə edir) əsasında mənzillər seçə biləcəklər.

Satışa 324 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi sistemi, su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur. Vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş bazar qiymətindən aşağı müəyyən olunub. Beləliklə, 1 otaqlı mənzillərin qiyməti 29 min 925 manatdan, 2 otaqlı mənzillərin qiyməti 47 min 282 manatdan, 3 otaqlı mənzillərin qiyməti 65 min 626 manatdan başlayır. Mənzillərin satış qiymətinə əlavə dəyər vergisi daxildir.

Vətəndaş mənzili İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda ödəniş proseduru da açıqlanıb. Mənzil 10 faiz ilkin ödəniş edərək 4 faiz dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka ilə alındıqda 1 otaqlı mənzillər üçün aylıq ödəniş 129-136 manat, 2 otaqlı mənzillər üçün aylıq ödəniş 203-236 manat, 3 otaqlı mənzillər üçün aylıq ödəniş 282-288 manat olacaq. Mənzilə güzəştli ipoteka krediti vasitəsi ilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10 faiz endirim əldə edəcək. Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı 1 otaqlı mənzillər üçün 26 min 932 manatdan, 2 otaqlı mənzillər üçün 42 min 554 manatdan, 3 otaqlı mənzillər üçün 59 min 63 manatdan başlayır.

Xatırladaq ki, MİDA-nın birinci layihəsi olan Yasamal Yaşayış Kompleksində 1, 2, 3 və 4 saylı binalarda yerləşən ilk 260 mənzilin satışına 7 may 2018-ci ildə başlanılsa da, onu həyata keçirmək mümkün olmadı. Buna "Elektron hökumət" portalı və MİDA-nın "Güzəştli mənzil" sistemində yaranmış problemlər imkan vermədi. Agentlikdəm verilən məlumata görə, ötən müddət ərzində yaranmış problemlər tam aradan qaldırılıb, onların təkrarlanmaması üçün bütün zəruri addımlar atılıb.

"MBA Ltd." konsaltinq və qiymətləndirmə şirkətinin baş direktoru Nüsrət İbrahimovun "Yeni Müsavat"a bildirdiyinə görə, MİDA-nın ilk kompleksinin yerləşdiyi ərazidə - Yeni Yasamalda yeni tikilmiş binalarda mənzillərin orta satış qiyməti hər kvadratmetr üçün 1200-1300 AZN təşkil edir: "Qiymətlər binanın yerləşdiyi yerdən, keyfiyyətindən və bir çox digər göstəricilərə görə müəyyən qədər fərqlənir. Mənzil İnşaatı Dövlət Agentliyinin təklif etdiyi qiymətlər nisbətən aşağıdır. Binalar yüksək keyfiyyətlə tikilib, digər binalara baxanda standartlara cavab verir. Yəni bu qiymətləri güzəştli hesab etmək olar. Haradasa ərazi üzrə orta qiymətdən 20-25 faiz aşağıdır".

**Mütəxəssisin sözlərinə görə, Agentliyin inşa etdiyi binalarda qiymətin nisbətən aşağı olması bazara stabilləşdirici təsir göstərir.**

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**



# Şahmatçının sponsoru

Zamin HACI
zaminhaci@gmail.com

"Şahmatda təkbaşına şedevr yaratmırlar. Mütləq yüksək səviyyəli rəqib lazımdır"
*(Harri Kasparov, bakılı dünya çempionu)*

**"Filankəs müəllim yeriyir", "Filankəs müəllim yemək yeyir" videolarının dalıyca məntiqlə "Filankəs müəllim icra başçısı işinə qayıtmışdır" videosu gəlməliydi, ancaq gələsi olmadı. Əvəzində başçını işdən atdılar. Videosu da olmadı. İşsizlik yaman şeydir, videosu olmur. Hərçənd, hələ tələsməyək, bir də gördün Bakı şəhərinə icra hakimi qoydular. Çünki Hacıbala müəllimdən sonra o müqəddəs yer boş qalmışdır. Özü də tarixi təcrübəmiz göstərir ki, yaralı başçı adətən yarasız başçıdan daha məsuliyyətli çalışır. El dilində yazsaq, yenə bunu yaralayıblar, başqası gəlsə gərək əhvalatı başdan başlayaq. Düz anladınız, yaralanmaq bizdə yeyib doymağın bir növ administrativ alternativlərindən biridir. Şair bu məqamda basdı klaviaturanı köksünə, görək nə dedi: "Yaralı durna, Sən haralısan, haralısan, durna". Əlbəttə, hamısı bizim eloğlumuzdur, mahnıya çox da aludə olmayaq.**

Sözümüzün canı odur ki, gərək yediyin, gəzdiyin videoları paylaşmaqda heç vaxt tələsməyəsən. Hər şeyin öz vaxtı var. Hətta alimlər (İsveç bilim adamları) məsləhət görür ki, harasa turist səfərinə gedəndə bunu sosial şəbəkə profillərinizdə aləmə car çəkməyin. Çünki oğrular belə şəbəkələri aktiv izləyirmişlər. Misal üçün, baxırlar İnstaqrama, görürlər Mamed müəllim külfətini başına yığıb Bodrumda hovuz keyfi ilə məşğuldur. Deməli, evdə heç kim qalmayıbdır. Gedirlər rahatlıqla evi daşıyırlar. O üzdən, alimlər məsləhət görür ki, əgər evin güvənliyinə arxayın deyilsinizsə, həyətdəki küknarın dibində seyfdə külçə qızıl saxlayırsınıza (eynən mənim kimi), səfər video və fotolarını ancaq evə qayıtdıqdan sonra paylaşın. O cümlədən, kabinetə qayıtmamış idman formasında səhər yeməyinin düşər-düşməzi olur. Hətta alimlər məsləhət görür ki, bu zaman çalışasan gərək zeytun yeməyəsən. Dənəsi birdən boğazına getdi? Çeçədin? Nəyə lazımdır belənçik işlər... Allah hamının canını sağ eləsin. Əmin-amanlıq şəraitində yaşayırıq, maşallah, AXC-Müsavat dövründə heç zeytun yeyən var idi? Şəhərin hər yanını zeytun basmışdı. Xeylisini rəhmətlik Akif Çovdarov təmizlədi, sağ olsun...

Bayaq mahnı söhbəti elədik, burada dünyaca ünlü sənətkarımız, müğənni Manaf müəllimə də müraciət etmək istərdik. Fikrimizcə, Manaf müəllim respublikanın problemlərini öz üzərinə həddən artıq götürməkdədir. Cem Yılmazın "Gora" filmində Bob Marley Faruk-un dediyi kimi, diqqət çəkir özünə. Ya da elə bizim "Axırıncı aşırım" kinosundakı məşhur səhnələrdən birini yada salaq. Darvazanı bağlayırlar, Qəmlo tüfəngi tuşlayıb həyətdəki bolşeviklərin üstünə, biri həyəcanlanır, o biri isə deyir: "Belə yerdə soyuqqanlı olmaq lazımdır". Manaf müəllim intihar problemlərini, müğənni xanımların videolarını həll edəndən sonra indi də şahmatçılarımıza sponsorluq etmək fikrindədir. Əlbəttə, yaxşı eləyir, ancaq yazdığım kimi, bir az nəfəs dərmək, soyuqqanlı olmaq lazımdır. Çünki bu minvalla Angela Merkel respublikamıza bir daha gəlsə Manaf müəllimlə görüşmək istəyəcəkdir. Bizə isə hələlik bu lazım deyildir. Bəlkə də lazımdır, nə biləsən.

Özü də sizə deyim ki, şahmatçıya sponsorluq eləmək elə şahmat oynamaq kimi bir işdir. Gərək rəqiblər sənin hansı gedişi edəcəyini qabaqcadan bilməsinlər, kələk gəlməsinlər, söz yaymasınlar. Diz çökmək söhbətini güc-bəlaynan təzə bağlamışıq. Rəqibi suqsvanqa salmalısan, seytnota düşürməlisən, nə bilim, girəvələyib atının quyruğunu kəsməli, filini ürkütməlisən.

Sonda şahmatçıya da iradımız var. O boyda turnir oynayıb, kombinasiya qurub, ancaq deyinir ki, mənə sponsorluq edən biznesmenlərimiz, iş adamlarımız, şirkətlərimiz yoxdur, nə olubsa dövlətdən olub, o da azlıq edir, yarışa öz pulumla gedirəm və sairə. Birincisi, bizim Qarabağ dərdimiz vardır, ikincisi, o müstəqil şirkətləri və biznesmenləri tapsan bizə də xəbər elə. Bu ağılla o boyda reytinqi bu nə təhər yığıb, adam inanmır.

**Ev veriblər, maşın veriblər, bu isə hələ çempion da olmaq istəyir. Rəhmətliyin nəvəsi, nəyinə lazımdır? Yol polisində işə düzəl, qurtarsın getsin. Yoxsa götürmürlər?**




# Ermənistanda yeni bahalaşma dalğası - Paşinyan seytnot durumda

## Gürcüstan üzərindən işğalçı ölkəyə taxıl daşınması qadağan edildi; qiymətlərdən narahat olan baş nazir qəfildən bazara getdi; təzə hakimiyyəti bürkülü payızla yanaşı, "qaynar" qış gözləyir - səbəb...

**Ermənistan və onun ətrafında 8 may hakimiyyət çevrilişindən sonra mürəkkəb proseslər gedir. Dərin islahatlar aparmaq adı ilə hakimiyyətə gələn inqilabçı baş nazir Nikol Paşinyanın qarşısında indi artıq eyni vaxtda iki əsas problemi çözmək vəzifəsi durur: əhalinin sosial-iqtisadi durumunu qısa zamanda yaxşılaşdırmaq, bir də ki, Rusiya ilə konfrontasiyadan qaçmaq. Hər iki istiqamətdə situasiya hələ ki ümidverici görünmür.**

Bu arada məlum olub ki, rəsmi Tiflisin qərarı ilə sentyabrın 1-dən Rusiyadan Ermənistana Gürcüstan üzərindən quru yolu ilə buğda tədarükü qadağan edilib (axar.az). Bu haqda məlumatı "Jamanak" qəzeti yayıb.

"Artıq şirkətlərə xəbərdarlıq edilib ki, Rusiyadan Ermənistana Gürcüstan vasitəsilə buğda daşınması mümkün olmayacaq. Tranzit yalnız Poti limanı vasitəsilə gerçəkləşdiriləcək, yəni Rusiya ilə Gürcüstan arasındakı quru sərhədindən buğda keçirilməsi tam dayandırılacaq. Bununla bərabər, buğda idxal edən şirkətlər Paşinyanı yaranan problemin strateji xarakterli olmasıyla bağlı xəbərdar ediblər. Belə ki, daşımaların dəniz vasitəsilə həyata keçirilməsi dənizdəki havadan asılı olacaq. Üstəlik, bunun nəticəsində bahalaşma qaçılmaz olacaq və xeyli tədarükçü işsiz qalacaq" - qəzet yazıb.

Qadağanın konkret nə ilə bağlı olduğu bildirilməsə də, məsələdə Paşinyan komandasından narazı olan Kremlin "barmağı"nın olduğu istisna edilmir. Hər necə olmasa, qərbyönlü Gürcüstanın rəhbərliyi qərbyönlü Paşinyan hökumətinin pis vəziyyətə düşməsini istəməz.

*****

"Yeni Müsavat" xatırladır ki, Nikol Paşinyanın baş nazirliyinin 100-cü günü ərəfəsində Ermənistanda un (çörək) bahalaşmışdı. Bu haqda yazan "Qraparak" qəzeti onu da qeyd etmişdi ki, un biznesi faktiki şəkildə "Qarabağ klanı"na yaxın olan oliqarx-deputat Samvel Aleksanyanın monopoliyasında olduğundan, unun yenə bahalaşmayacağına heç bir zəmanət yoxdur. Bunu indi həm də buğdanın daşınması ilə bağlı Gürcüstanın yasağı diktə edir.

Çörək isə 1 nömrəli zəruri ərzaq məhsulu sayılır. Beləcə, inqilab eləmiş ermənilərin dolanışığı yaxşılaşmaq əvəzinə, pisləşməyə, yaşayış minimumu qalxmaq əvəzinə, enməyə üz tutub. Paralel surətdə digər zəruri ehtiyac məhsulları, o sırada kənd təsərrüfatı məhsullarının qiymətində də artım müşahidə edilir. Təsadüfi deyil ki, qiymətlərdən narahat olan baş nazir Nikol Paşinyan bir neçə gün öncə qəfildən İrəvan bazarına baş çəkib. Bu barədə o, özünün facebook səhifəsində yazıb.

"Kənd təsərrüfatı məhsullarının qiyməti ilə maraqlanmaq üçün bazara getdim",- deyə baş nazir qeyd edib. Yerli KİV səfərin "gözlənilməz" olduğunu yazıb. Yerli ekspertlər hesab edir ki, Paşinyanın bazara getməsi son zamanlar artan qiymətlərlə bağlıdır. Belə ki, kənd təsərrüfatı məhsulları ötən ilin müvafiq dövrü ilə müqayisədə 100-150 faiz artıb.

*****

Əlavə edək ki, bir neçə ay sonra - ilin sonunda Rusiya ilə Ermənistan arasında qaz anlaşmanın müddəti bitir. Yeni müqavilədə də "Qazprom" işğalçı ölkəyə mavi yanacağı daha baha qiymətə satacağı barədə qeyri-rəsmi şəkildə anons edib. Bu isə təzə hökumət üçün payızla yanaşı, qışın da "qaynar" keçəcəyi anlamına gəlir. Çünki enerji daşıyıcısı olan qazın bahalaşması daha bir bahalaşma dalğası yaradacaq ki, bu da Paşinyana olan ictimai etimadı kökündən sarsıda bilər.

Ancaq yeni iqtidar Rusiya yönlü kursa qayıtsa, ola bilsin, Moskva ciddi qiymət artımına getməsin. Lakin o halda yenə Paşinyanın daxili reytinqi düşəcək. Ona görə ki, o, Qərbə yaxınlaşmaq şüarları ilə hakimiyyətə gəlib, Qərbə yaxınlaşmaqla da ondan böyük maliyyə dəstəyi almağa ümid edir.

Üstəlik, köhnə siyasətə qayıdış əvvəlki korruspsioner sistemin saxlanması, islahatların boşa çıxması anlamı verəcək ki, bu da "məxməri inqilab"ın hədəflərinə ziddir. O zaman belə bir sual bütün aktuallığı ilə gündəmə gələcək ki, əgər inqilab heç nəyi dəyişdirməyəcəkdisə, Sərkisyan rejimini devirməyə dəyərdimi?

*****

Bütün bunlar Ermənistanın yeni baş nazirinin seytnot duruma girməsindən xəbər verir. Paşinyanın bu vəziyyətdən necə çıxacağı, ələlxüsus Kremlə necə anlaşacağını izləmək maraqlı olacaq. Rusiyanın isə Qərbyönlü kursu tərcih edəcəyi təqdirdə Paşinyan hökumətinə qarşı bir neçə ciddi rıçaqı var.

Biri deyildi - təbii qazın qiymətini artırmaqla işğalçı ölkədə yeni bahalaşma dalğasına səbəb olmaq. İkinci mühüm rıçaq kimi bahalaşma və Paşinyanın reytinqin düşməsi fonunda hakimiyyət dəyişikliyi ssenarisi işə salmaqdır. Bundan ötrü hətta seçki yolu da keçərli ola bilər. Çünki Paşinyan erkən parlament seçkilərini qısa müddətdə keçirmək əvəzinə, gələn ilin aprel-may ayına nəzərdə tutub. O vaxta kimi isə onun öz reytinqinin yüksək səviyyədə saxlayacağı böyük sual altındadır.

Hakimiyyət dəyişikliyi ssenarisi üçün Kremlin ehtiyat namizədləri də var. Məsələn, eks-prezident, Rusiyaya sədaqət sınağından uğurla çıxmış Robert Köçəryan, yaxud Moskvanın adamı olan sabiq baş nazir Karen Karapetyan.

*****

"Ermənistanın keçmiş prezidenti Robert Köçəryan müxalifəti və narazıları öz ətrafında birləşdirə bilər". Bu barədə erməni politoloq Vigen Akopyan deyib. O, keçmiş prezidentin parlament seçkilərinə hazırlaşdığını bildirib (teleqaraf.com). Erməni politoloq hesab edir ki, Köçəryan baş nazir Nikol Paşinyandan narazı siyasi qüvvələri ətrafında birləşdirməklə, seçkiləri qələbə ilə başa vurmaqda israrlıdır.

"Həbs təhlükəsinin aradan qalxmaması Robert Köçəryanı öz mövqeyini daha da gücləndirməyə məcbur edir. O, buna görə də, siyasi meydanda öz yerlərini itirmiş qüvvələri birləşdirici güc kimi ortaya çıxmağa cəhd edəcək. Köçəryan sanki Paşinyanla bəhsə girib və seçkiləri qələbə ilə başa vurub baş nazir olmaqda israrlı görünür. Əgər keçmiş prezident müxalifətin etibarını qazansa bilsə, bu düşərgənin əsas namizədi kimi seçkilərə qatılacaq. İndiki vəziyyətdə isə onu öz nüfuzunu geri qaytarmaq üçün ağır iş gözləyir. Amma vaxta hələ var", - deyə Akopyan qeyd edib.

Xatırladaq ki, Robert Köçəryan ötən ay həbs edilsə də, bir neçə gün sonra Apelyasiya Məhkəməsinin, daha doğrusu, onun keçmiş işçisi olmuş hakimin qərarı ilə azadlığa buraxılıb. O, 2008-ci il martın 1-də İrəvan şəhərində keçirilmiş dinc aksiyalar vaxtı etirazçılara atəş açmaq əmri verməkdə ittiham edilir. O zaman 10 nümayişçi öldürülmüşdü.

**Nəhayət, Moskvanın əlində Paşinyan komandası əleyhinə Qarabağ "kartı" da var...**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

# Prezidentin Rusiya səfərində əsas gözlənti

## İki ölkə arasında münasibətlər yeni mərhələyə keçir; **politoloq:** "Səfər böyük perspektivlərə yol aça bilər..."

**Azərbaycan prezidenti İlham Əliyev Rusiyaya rəsmi dövlət səfəri edəcək. Bir müddət öncə səfərin avqustun 31-də olacağı barədə məlumat yayılmışdı. Daha sonra xəbər yayıldı ki, ziyarət sentyabrın 1-də reallaşacaq. Hələlik bu barədə rəsmi məlumat açıqlanmayıb.**



Rusiyanın Bakıda səlahiyyətlərinin icrasına yeni başlayan səfiri Mixail Boçarnikov ötən həftə keçirdiyi ilk mətbuat konfransında səfərin tarixinin hazırda dəqiqləşdirildiyini bildirib.

Dövlət səfəri protokola görə, iki ölkə arasında ən yüksək səviyyəli səfər hesab edilir. Belə ziyarətlər zamanı prezidentləri geniş tərkibli nümayəndə heyətləri müşayiət edir, ölkələr arasında bütün sahələrdə münasibətlər müzakirə olunur və sənədlər paketi imzalanır.

Səfir Boçarnikov onu da deyib ki, Rusiya heç kimi seçim qarşısında qoymağa çalışmır. "Hesab edirəm ki, Rusiya və Azərbaycan suveren, dayanıqlı və sabit dövlətlərdir və onlar beynəlxalq arenada özləri üçün dostlar dairəsini müəyyən etmək iqtidarındadırlar".

Bəs Azərbaycan prezidentinin Rusiyaya rəsmi səfərindən əsas gözləntilər nədən ibarətdir? Bu səfər iki ölkə arasında münasibətləri yeni mərhələ daşıyacaqmı? Ermənistanın Rusiya ilə münsibətlərində soyuqluq bu səfərdə Rusiyanın Qarabağ probleminə yeni münasibət ortaya qoymasına səbəb ola bilərmi? Nəhayət, Azərbaycanın KTMT-yə və ya Avrasiya İttifaqına daxil olması kimi məsələlər gündəmə gələ bilərmi?

**Politoloq Tofiq Abbasov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın qlobal geosiyasətdə, eləcədə bölgədə əhəmiyyəti durmadan artır: "Rusiyaya səfər də bunun göstəricisidir. Təsadüfi deyil ki, son vaxtlar Azərbaycanın prezidenti Fransaya, Brüsselə səfərlər etdi, İtaliyanın prezidenti Azərbaycana səfərə gəldi, ən son olaraq Almaniya kansleri Azərbaycana gəldi. Rusiya da Azərbaycanın rolunu qiymətləndirir və Azərbaycan prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfərinə də bu prizmadan baxmaq lazımdır. İlham Əliyevin Rusiyaya səfəri həm Azərbaycanın, həm də Rusiyanın marağındadır. Moskva fərqindədir ki, Azərbaycan bölgənin, Avrasiyanın açar dövlətlərindən biridir. Moskva Azərbaycanla bağlı çox böyük ümidləri özündə daşıyır. Hazırkı vəziyyətdə Rusiyanın Azərbaycanla münasibətləri bütün göstəricilərə görə perspektivli və ümidvericidir. Bu baxımdan hesab edirəm ki, cənab prezidentin Rusiyaya səfərindən önəmli gözləntilər var. Azərbaycan öz imkanları hesabına ayaq üstə duran, müstəqil xarici siyasət yürüdən dövlətdir. Moskva artıq bunu qəbul edir, Azərbaycanın bu xətti tutmasına ilə artıq barışıb. Ona görə də düşünmürəm ki, danışıqlarda Azərbaycanın KTMT-yə və ya Avrasiya İttifaqına qoşulması məsələsi ciddi şəkildə gündəmə gətiriləcək. Kremldə məhz Azərbaycanı özlərinin ən əlverişli müttəfiqi kimi görürlər. Bu müttəfiqliyi sözügedən qurumlarda birlikdə olmadan da ikitərəfli həyata keçirməyin mümkün olduğu qənaətindədirlər. Son zamanlar Ermənistanın Rusiyadan bir qədər uzaqlaşmaq xətti götürməsi də şimal qonşumuzun bizə yaxınlaşması üçün əlavə təkan rolunu oynaya bilər. İstisna deyil ki, Rusiya-Azərbaycan münasibətlərində yeni xətt qəbul edilsin. Bu xətt daha sıx tərəfdaşlıq xətti ola bilər. İlham Əliyevin səfəri böyük perspektivlərə yola aça bilər. Artıq Xəzər məsələsindən göründüyü kimi, çox mühüm məsələlərdə ümumi bir konsensus əldə etmək mümkündür".

**Politoloq hesab edir ki, Azərbaycanın bir nömrəli məsələsi olan Dağlıq Qarabağ probleminin ədalətli həlli üçün də müəyyən ümidverici durumun meydana gəlməsi istisna edilmir:** "Şübhə etmirəm ki, ATƏT-in Minsk qrupunun həmsədri olan bir ölkənin prezidenti ilə Azərbaycan prezidenti arasında görüşdə Dağlıq Qarabağ məsələsi də müzakirə ediləcək. Qarabağ məsələsi şübhəsiz ki, danışıqlarda başlıca məsələlərdən olacaq. Prosesin axarı artıq Azərbaycanın xeyrinə gedir və Ermənistan Qarabağ məsələsində Rusiyanın nəzərində zəif bəndə çevrilir. Ona görə də düşünürəm ki, Rusiya və Azərbaycan prezidentləri arasında danışıqlar problemin yaxın gələcəkdə ədalətli həllini tapmasına ciddi təsir göstərə bilər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Rus ordusu irimiqyaslı hərbi manevrə başladı

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu Leonid Brejnevin vaxtından bu yana ən irimiqyaslı hərbi təlimlərin keçiriləcəyini elan edib. Virtualaz.org Rusiya KİV-lərinə istinadən xəbər verir ki, müdafiə naziri təlimlərə 300 min nəfərə yaxın canlı qüvvə və 36 min vahiddən çox yerüstü hərbi texnikanın cəlb olunacağını bildirib.**

"Bu təlimlər haradasa "Qərb-81"i (1981-ci ildə SSRİ-nin keçirdiyi və soyuq müharibə dövrünün ən iraimiqyaslı təlimləri-red.) xatırladır, amma ola bilsin nələrə görəsə daha irimiqyaslı olacaq"-Şoyqu bildirib.

Rusiya müdafiə nazirinin sözlərinə görə, "Şərq-2018" adlı təlimlər sentyabrın 11-dən 15-nə qədər Mərkəz və Şərq hərbi dairələrinin bütün poliqonlarında keçiriləcək. Orada Sakit okean və Şimal donanması, o cümlədən Hava Desant Qüvvələri tam tərkibdə iştirak edəcək.

"Təsəvvür edin ki, eyni zamanda 36 min texnika hərəkətə gələcək-bunlar tanklar, BTR-lər, BMP-lərdir. Və bütün bunlar təbii ki, döyüş şəraitinə maksimal yaxınlaşdırılmış şəraitdə sınaqdan keçiriləcək"-müdafiə naziri deyib.

**Rusiya KİV-ləri xatırladır ki, Brejnevin dövründəki "Qərb-81" təlimləri 1981-ci ilin sentyabrında Belarus, Kiyev və Pribaltika hərbi dairələrinin ərazisində, habelə Baltik dənizi akvatoriyasında keçirilib. Sovet ordusu ilə yanaşı təlimlərə Varşava blokunun bir neçə ölkəsinin qoşunları da qatılıb. Bu təlimlərdə ilk dəfə avtomatlaşdırılmış idarəetmə sistemləri və bir neçə yüksək dəqiqlikli silahlar ilk dəfə sınaqdan keçirilmişdi.**

❑ **Virtualaz.org**

# Rusiyaya qarşı növbəti sanksiyalar-noyabrda daha sərt olacaq

## **Sabiq maliyyə naziri:** "ABŞ Rusiyanı o, əlini yerə vurub "daha bəsdir" deyənə qədər boğmağa çalışacaq"

**ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyaları Bakı vaxtı ilə avqustun 27-də saat 07:00-dan qüvvəyə minib. Bu sanksiyalara görə Dövlət Departamenti həmin gündən Rusiyaya mülki aviasiya və kosmik sahədə ixrac istisna olmaqla, silah və ikitəyinatlı məhsulların ixracı üçün lisenziya verməyəcək. Eyni zamanda, təcili humanitar yardım, qida və digər kənd təsərrüfatı məhsullarından başqa, ABŞ-ın Rusiyaya istənilən yardımı dayandırılıb. Moskva ABŞ tərəfinin "istənilən kreditlərindən, kredit zəmanətlərindən və digər maliyyə yardımlarından" məhrum edilib.**




Xatırladaq ki, ABŞ hökuməti yeni iqtisadi sanksiyalarla bağlı avqustun 8-də məlumat yaymışdı.

Məlumata görə, Vaşinqton daha da sərt sanksiyalar paketi hazırlamaqdadır. Qüvvəyə minən sanksiyalar humanitar yardımdan əlavə, silah sahəsi, kosmos və aviasiya sahəsini, həmçinin Rusiyanın hüquqi şəxslərinin kreditləşmə aparmasına qadağa qoyur.

Ekspertlər bildirir ki, sözügedən sanksiyaların qüvvəyə minməsi bu yaxınlarda Helsinkidə Donald Tramp-Vladimir Putin görüşünün iki ölkə arasında gərgin münasibətləri qaydasına qoymadığının daha bir sübutudur, artıq ABŞ Rusiyaya iqtisadi müharibə aparır. Vaşinqton bəyan edir ki, məqsəd Kremlin beynəlxalq nizamı təhdid edəcək siyasətinin qarşısını almaqdır. Vaşinqton bununla təkqütblü dünya siyasətini öz əlində saxlamağa çalışır.

Siyasi və iqtisadi ekspertlər onu da bildirirlər ki, Rusiyanın ABŞ-a cavab addımları yetərsizdi. Bundan əlavə, Putin heç də Vaşinqtonun bu sanksiyalar fonunda geri çəkilməyəcək. Baxmayaraq ki, Rusiya iqtisadiyyatı geriləyir, sosial problemlər artır.

**Sabiq maliyyə naziri Fikrət Yusifov** "Yeni Müsavat"a şərhində bildirdi ki, Rusiyaya qarşı tətbiq edilən yeni sanksiyalar Amerika Birləşmiş Ştatlarının bu ölkənin iqtisadiyyatını iflic hala salmaq məqsədilə atılan növbəti addımdır: "Yeni sanksiyalar ABŞ-n 1961-ci ildə qəbul edilmiş xarici yardım haqqındakı qanununa uyğun yardımların dayandırılmasını nəzərdə tutur. Düzdür, bu zaman təcili humanitar yardım, qida və digər kənd təsərrüfatı məhsulları hələlik istisna edilir. ABŞ hər il müxtəlif kanallarla xarici ölkələrə, o cümlədən Rusiyaya milyonlarla dollar həcmində müxtəlif problemlərin həlli ilə bağlı humanitar yardım göstərir. İndi Rusiyaya bu yardımların dayandırılması Rusiya üçün itki deməkdir. Bundan öncə tətbiq edilmiş sanksiyalar nəticəsində şimal qonşumuzda kifayət qədər maliyyə çətinlikləri yaranmışdı. Belə bir durumda müxtəlif təyinatlı yardımların dayandırılması çətin maliyyə vəziyyətini bir qədər də ağırlaşdıracaq. ABŞ-n istədiyi də budur".

**F.Yusifov qeyd etdi ki, Rusiya iqtisadiyyatı bundan daha ciddi bir zərbəni bu ilin noyabr ayından etibarən hüquqi şəxslərin, idxal, ixrac əməliyyatlarının kreditləşdirilməsinin dayandırılmasından sonra alacaq:** "Hesab edirəm ki, Birləşmiş Ştatlar yaxın iki il ərzində Rusiya iqtisadiyyatını çökdürmək üçün indiyə qədər tətbiq edilən sanksiyalardan daha kəskin iqtisadi sanksiyalara əl atacaq. Bu yol artıq seçilib. Qaydasız döyüşdə boğma fəndi işlədildiyi zaman boğulan idmançı döyüşün dayandırılmasını əlini yerə vurmaqla işarə edir və bundan sonra oyun dayandırılır, boğma fəndini işlədən tərəf qalib elan edilir. ABŞ Rusiya münasibətlərində də bu gün analoji bir vəziyyət baş verir. ABŞ Rusiyanı o əlini yerə vurub "daha bəsdir" deyənə qədər boğmağa çalışacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 181 (7070) 29 avqust 2018

**Azərbaycanda yol qəzaları can almaqda davam edir. İllərdir ki, bu məsələ mətbuatda ictimailəşdirilsə də, müvafiq qurumlar tərəfindən çoxsaylı tədbirlər görülsə də, hər il yol nəqliyyat hadisələri nəticəsində xeyli sayda insan dünyasını dəyişir. Daxili İşlər Nazirliyi avqustun 27-dən 28-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlayıb. Məlumatda bu da qeyd olunub ki, respublikanın avtomobil yollarında 4 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb, 7 nəfər xəsarət alıb.**

# Avqustda baş verən qırğın kimi avtoqəzalar-51 ölü, 203 yaralı...

## Ekspertlər hesab edir ki, ağır qəzalara səbəb sürücü məsuliyyətsizliyidir; qəza zamanı Rusiya istehsalı olan avtomobillərdə ölüm halları daha çox olur

**Avqustun 25-də isə Siyəzən rayonunda minik avtomobillərinin toqquşması nəticəsində 6 nəfər ölüb, 1 nəfər yaralanıb.**

Rayon ərazisində içərisində Siyəzən sakinlərinin olduğu "VAZ-2107" və içərisində Bakının Badamdar qəsəbəsinin sakinləri olan "Daewoo" markalı minik avtomobillərinin toqquşması nəticəsində 2 qadın, 1 uşaq və 3 kişi olmaqla 6 nəfər hadisə yerində ölüb, 1 uşaq isə ağır yaralanıb. 12 yaşlı uşaq Siyəzən Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Yaralı uşaqdan ötrü Bakıdan həkim komissiyası çağırılıb.

Ümumilikdə Daxili İşlər Nazirliyinin yaydığı statistikaya görə, avqust ayının 25 günündə respublikanın avtomobil yollarında 110 yol-nəqliyyat hadisəsi baş verib. yol qəzalarında 51 nəfər ölüb, 203 nəfər isə xəsarət alıb.

Qeyd edək ki, iyul ayında respublikanın avtomobil yollarında 133 yol-nəqliyyat hadisəsi baş verib. Qəzalarda 68 nəfər ölüb, 248 nəfər xəsarət alıb.



Statistikalardan belə aydın olur ki, yol nəqliyyat hadisələri zamanı Rusiya istehsalı olan avtomobillərdə ("VAZ 2107", "VAZ 2106" və s. ) ölü sayı daha çox olur. Bu avtomobillər təhlükəsizlik baxımından standartlara cavab vermir. Buna baxmayaraq bu cür avtomobillər Bakı küçələrində, rayon yollarında şütüməyə davam edir.

"Yeni Müsavat"a danışan **ekspert Ərşad Hüseynov** bildirib ki, bu avtomobillərin yığışdırılması sosial məsələsidir: "Hətta burada deyərdim ki, siyasi iradə də lazımdır. Çünki bu dəqiqə Azərbaycanın fərdi avtomobil parkının təxminən 30-40 faizi həmin avtomobillərdir. Onların yığışdırılması haqqında qərar qəbul edilərsə, bu qədər insan çətinliklə üzləşəcək. Ona görə də məsələ yol hərəkəti proqramı çərçivəsində həll edilməlidir. Bugünkü günün tələbi belədir ki, yollarda istifadə olunan nəqliyyat vasitələri texniki baxımdan saz olmalıdır. Sazlıq da "Yol Hərəkəti haqqında" qanunda 1 saylı əlavəsi ilə müəyyən olunur. Məsələn, konstruksiyanın bütün elementləri yerində olmalıdır. Eyni zamanda yol hərəkəti qaydaları, yol hərəkətinin təhlükəsizliyi tələbləri deyir ki, sürücü yolda hərəkət edən zaman həm də özünün idarə etdiyi nəqliyyat vasitəsinin imkanlarını nəzərə almalıdır. Bilməlidir ki, o, nə sürür və bu maşının texniki göstəriciləri necədir. Ümumilikdə yol hərəkəti qaydaları ilə bərabər bu məsələlər də yerində olmalıdır. Sürücü bilməlidir ki, qəza baş verən zaman nə olar. Məsələn, "VAZ-2107"nin tormoz sistemi ilə müasir avtomobillərin əyləc sistemində fərq var. Müasir avtomobillərdə ABS tormoz sistemi var ki, bu sistemin köməkliyi ilə əyləcə basanda avtomobil istiqamətini dəyişmir. Ancaq "VAZ-2107" avtomobilinə sərt tormoz verən zaman avtomobil istiqamətini dəyişir, yaxud da aşır. Ona görə də sürücü bunu nəzərə almalıdır".

Ekspert bildirib ki, bu baxımdan qəzaların baş verməsində sürücülərin üzərinə böyük məsuliyyət düşür: "Azərbaycanda sürət həddi optimal müəyyən olunub. Hətta deyərdim ki, hazırda bizim ölkənin yollarında tətbiq olunan sürət rejimi sovet dönəmində, həmin avtomobillərin dəbdə olan vaxtı müəyyən olunub. Sürət rejimi ilə bağlı heç bir problem yoxdur. Sadəcə olaraq sürücü sürət rejimini özü seçməlidir. Yolda 90 sürət həddi qoyulubsa, o demək deyil ki, sürücü bütün vaxtlarda 90-la getməlidir. Yağışda, qarda, hava qaranlıq olanda və ya başqa problemlər zamanı sürücü sürəti aşağı salmalıdır. Bu da artıq sürücünün özünün qərarına aid olan bir məsələdir. Sürücü hər şeyi hesablamağı bacarmalıdır. Qəzaların bu həddə olmasında Dövlət Yol Polisinin heç bir günahı yoxdur. Dövlət yol polisi nə edə bilər? Hazırkı dövrdə hərəkətin təşkili ilə bağlı müəyyən problemlər var. Bunlar aradan qaldırılmalıdır. Ancaq başlıca məsuliyyət avtomobil idarə edən şəxsin üzərinə düşür. Yol polisinin üzərinə düşən məsuliyyət, sadəcə olaraq hərəkətin təşkili ilə bağlı müəyyən nüanslardır. Sadəcə olaraq əsas məsələ sürücü hazırlığının keyfiyyətini artırmaq olmalıdır ki, yollarda peşəkar sürücülər olsunlar və təsadüfü adamlar sürücülük hüququ qazana bilməsinlər. Bu dəqiqə sürücü hazırlığı məsələsi arzu olunan səviyyədə deyil. Hazırlıq səviyyəsi yüksək olsa, həmin sürücü yollarda bu qədər səhv etməz. Bu gün bəzi yollarımızda işıqlanma problemi də var. İşıq probleminə nədənsə, müvafiq qurumlar diqqət ayırmırlar. Bu da böyük problemdir. Bütün istifadə olunan magistral yollar normal qaydada işıqlandırılmalıdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

## Toy karvanında mikroavtobus qəzası: 1 ölü, 14 yaralı



**Gədəbəy rayonunda ağır yol qəzası baş verib.**

"Report"un Qərb bürosunun məlumatına görə, hadisə Şəmkir-Gədəbəy avtomobil yolunda qeydə alınıb. Şəmkir rayonunda qəzaya uğrayan mikroavtobusun sürücüsü hadisə yerində ölüb. Məlumata görə, qəza rayonun "Yasamal aşırımı" adlanan ərazisində baş verib. Hadisə nəticəsində 14 nəfər sərnişin isə müxtəlif bədən xəsarətləri alıb. Yaralılar xəstəxanaya yerləşdirilib. Məlumata görə, mikroavtobus toy karvanında hərəkət edirmiş.



## Lerikdə ağır qəza

**Lerik rayonunda yol qəzasında bir nəfər ölüb, iki nəfər xəsarət alıb. "Report"un cənub bürosunun xəbərinə görə, hadisə Piran-Hamarat yolunda baş verib. Hadisə nəticəsində Lerik rayonu, Coni kənd sakini, 80 yaşlı Qızbacı Ağakişi qızı Nəhmətova ölüb, 57 yaşlı Nəhmətulla Gülhəsən oğlu Əhmədov və 55 yaşlı İranə Gülhəsən qızı Nəhmətova yaralanıb.**

Hər iki yaralı reanimasiya şöbəsinə yerləşdirilib. Qapalı kəllə-beyin travması diaqnozu qoyulan yaralılardan daha ağır vəziyyətdə olan N.Əhmədov travmatik şok vəziyyətindədir.

# Ölkəmizin 30 min ton qızılı harada saxladığı bilindi

## Ümumdünya Qızıl Şurasının hesabatına əsasən, Azərbaycan dünyada ən çox qızıl ehtiyatı olan ölkələr sırasında 54-cü yerdədir




**Hazırda Azərbaycanın 30 min ton qızılı var. Bu qızıllar Azərbaycan Dövlət Neft Fondunun inzibati binasında saxlanılır. Fondun yaydığı məlumata görə 2017-ci ilin sonuna fondun investisiya portfelinə daxil edilmiş qızılın miqdarı 30 175 kq - 970 146 troya unsiya təşkil edib.**

Belə ki, 11 yanvar 2013-cü il tarixindən etibarən alınmış qızıl Azərbaycana gətirilərək, müvəqqəti olaraq Mərkəzi Bankda saxlanılıb. 2016-cı ilin sonuna ölkəyə gətirilmiş qızılın miqdarı 30 169 kq təşkil edib. 2017-ci il ərzində isə qeyd edilən qızılın ARDNF-nin inzibati binasında inşa edilmiş xəzinəyə gətirilməsi başa çatdırılıb. Məlumatda o da bildirilir ki, fond investisiya portfelində qızılın payını 5 faizə çatdırmağı hədələyib.

Qeyd edək ki, dünyanın əksər dövlətlərində qızıl fondları mövcuddur. Qızıl ehtiyatı dövlətlərə maliyyə siyasətini həyata keçirmək və fövqəladə hallar zamanı ən zəruri ehtiyaclarını ödəmək üçün lazımdır. Ümumdünya Qızıl Şurasının hesabatına əsasən dünyada ən çox qızıl ehtiyatı olan ölkələr ABŞ (8 133 5 ton), Almaniya (3 381 ton), İtaliya (2 451 8 ton) və digərləridir. Azərbaycan bu siyahıda 54-cü yerdədir.

Hazırda dünyada maliyyə, dolların məzənnəsi və digər valyutalarla bağlı problem yaşanmaqdadır. Bəs görəsən qızıl həmişəmi qızıldır?

Mövzu ilə bağlı **iqtisadçı ekspert Rəşad Həsənov** "Yeni Müsavat"a danışıb: "Dünyada bütün banklar qızıla yatırım edirlər. Amma burada əsas prinsiplərdən biri qızıla doğru zamanda yatırım edilməsidir. İkincisi isə daha təhlükəsiz aktivlərdə öz vəsaitinin saxlanılması məsələsidir. Neft Fondunun qızıla yatırım qərarını gecikmiş hesab edirəm. Zamanında Neft Fondunun imkanı var idi ki, qızılı 600-700 dollara alsın. Lakin Fond bunu etmədi və təxminən qızılı orta hesabla 1450 dollara aldı. Bu gün dünya bazarında qızılın qiyməti 1213 dollardır. Bir neçə gün bundan əvvəl hətta 1175 dollara qədər ucuzlaşmışdı. Ehtimallardan biri ondan ibarətdir ki, bu ucuzlaşma getdikcə daha da arta bilər.

Hazırda Neft Fondu qızılın yatırımları ilə bağlı zərərdədir. Fondun qızıl ehtiyatları 970 min unisiyadır. Burada bir dollar zərər 970 min zərər deməkdir. Fondun qızılla bağlı təxminən 200-220 milyon dollar zərəri var. Lakin davamlı olaraq bu məsələ gündəmə gələndə fond bu investisiyanın uzun müddətli dövrə hesablandığını bildirir və beləliklə öz qərarını sığortalamağa çalışır. Doğrudur, fond 20 illik müddəti nəzərə alaraq bu investisiyanı edib. Məsələ bu kontekstdən yanaşsaq, təbii ki, fond 20 il sonra qızılı baha qiymətə sata bilər. Lakin vəsaitlərin idarə edilməsinin özü də burada səmərəli təşkil olunmalıdır. Çünki Neft Fondu dünyada çox az fondlardan biridir ki, orada vəsaitlərin idarə olunmasından əldə edilən gəlirlər çox azdır. Məsələn, Norveç Fondunun vəsaitlərin idarə olunmasından əldə etdiyi illik gəlir 4-10,2 faiz arasında dəyişirsə, bizdə bəzi hallarda hətta 1 faizdən aşağı düşür. Beləliklə, qızıla investisiya qərarı doğru hesab edilə bilər, amma zaman doğru deyildi".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ məsələsində əsas silahımız... - Bakı müharibə hüququnu əldən verməyəcək

## Konfliktin həllinə Rusiyanın yanaşması Ermənistandakı proseslərdən asılı duruma gəlib; **Kremlin "danışan dili" işğalçı ölkəni yenə hədələdi:** "5 rayon Azərbaycana verilməsə..."

**Qarabağ danışıqlarında uzunmüddətli durğunluğun təhlükəli olması barədə vaxtaşırı xəbərdarlıqlar edilir. Məsələ ondadır ki, atəşkəs rejimi sonsuzadək sürə bilməz. Daha doğrusu, əgər atəşkəs uzun müddət sülhə gətirmirsə, o zaman mütləq müharibəyə gətirəcək. Hər halda konfliktlərin tarixi bunu deyir.**




**Dağlıq Qarabağ münaqişəsi də bu sırada istisna deyil, olmayacaq. Bəzilərinin düşündüyünün əksinə olaraq, bu konflikti əslində dondurulmayıb, tüstülənməkdə davam edir və kişicik bir "meh" onun təzədən alovlanmasına gətirə bilər. Regionda böyük müharibə isə ən çox Rusiyanın buradakı strateji maraqları üçün qəliz bir test olacaq.**

Görünür, bunu anlayan bir sıra rusiyalı analitiklər böyük müharibənin alovlanmasını önləmək və savaş riskini gündəmdən çıxarmaqdan ötrü ilkin mərhələdə işğal altındakı ərazilərin heç olmasa, bir qisminin Azərbaycana qaytarılmasının zəruriliyi barədə tez-tez xəbərdarlıqlar edirlər. Onlardan biri də Kremlə yaxın rusiyalı tanınmış politoloq, Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqindir.

*****

"Moskva İrəvanın Bakıya 5 rayonun qaytarılmasına nail olmaq niyyətindədir". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə Duqin "Moskva-Baku" saytına son müsahibəsində deyib. Avrasiyaçı-politoloq Ermənistanın yeni rəhbərliyinin bu məsələdə inkarçı mövqe tutmasının onun siyasi taleyi üçün yaxşı qurtarmayacağı barədə acıq mesaj da verib.

Onun sözlərinə görə, Moskva üçün Ermənistanda o siyasətçi maraqlıdır ki, o, ölkənin əvvəlki geosiyasi xəttinin varisi kimi çıxış edəcək: "Vacib deyil ki, həmin şəxs demokrat olsun, yaxud milliyyətçi və ya başqa hansısa biri. Rusiya orada kritik xətt keçilməyənədək prosesi müşahidə edəcək. Lakin Rusiyadan ötrü Ermənistanla münasibətlərdə prinsipial məsələ var: Moskva Dağlıq Qarabağ ətrafında erməni silahlı qüvvələrinin işğal etdiyi 5 rayonun Azərbaycana qaytarılmasını özündə ehtiva edən sülh nizamlamasının birinci mərhələsini həyata keçirməkdə qətiyyətlidir. Serj Sərkisyanla bu istiqamətdə ciddi irəliləyiş əldə olunmuşdu. Regionda olan durumun daha da qəlizləşməməsi üçün bu vacib şərtdir".

Politoloqa görə, Ermənistanda hansı qüvvənin hakimiyyətdə olmasından asılı olmayaraq, Moskva bu məsələdə qəti mövqedədir: "Orada hakimiyyətə kim gəlir-gəlsin, o, Qarabağ probleminə münasibətdə əvvəlki erməni rəhbərliyi ilə əsas regional güclər arasında əldə olunmuş anlaşmalara əməl eləməlidir. Azərbaycana 5 rayonun qaytarılmasına Qərb də etiraz eləmir. Yəni bu, hamını qane edərdi. Yeri gəlmişkən, bu aspekt Rusiyanın Ermənistana münasibətində test rolu oynayacaq. Biz bilirik ki, Nikol Paşinyan ilkin mərhələdə bəyan edib ki, o, belə anlaşmanı tanımaq belə istəmir. Bu, çox həyəcanlı siqnaldır və anlaşmaların strateji formalarının necə pozulduğunun əlamətidir. Əgər yeni Ermənistan bu xətti davam etdirərsə, o zaman təəssüf ki, situasiya kəskinləşəcək və Moskva İrəvanla qarşılıqlı əlaqələrin formasına təzədən baxmalı olacaq. Ancaq hələ ki, hər şey yerində qalır - hər halda Moskva tərəfdən".

Kremlin qeyri-rəsmi sözçülərindən olan Duqin erməni tərəfinə bu xüsusda xəbərdarlıq edib: "Biz Ermənistanda millətçi, anti-Rusiya tendensiyalarının baş qaldırdığının şahidiyik. Bu da onu göstərir ki, situasiya nəzarətdən çıxa və fəlakətli ssenari üzrə inkişaf edə bilər - ilk növbədə Ermənistanın özü üçün. Rusiya üçün də pis olacaq, çünki Ermənistan Rusiyanın məsuliyyət zonasında yerləşir və o, inteqrasiya birliklərinin (KTMT, Avrasiya Birliyi - red.) iştirakçısıdır. Bu halda Ukrayna təcrübəsi də göstərir ki, Rusiya passiv qala bilməz. Bu, olduqca baha başa gələcək. Rusiya özünün məsuliyyət zonasında situasiyanın belə fəlakətli inkişafına imkan verə bilməz. Bu, bütövlükdə bölgədəki qüvvələr balansına təsir edəcək. Hələlik situasiya böhranlı xətti aşmayıb. Hələ ki, Moskva Ermənistandakı vəziyyətə qarışmır və oradakı qüvvələrə öz mövqelərini dəqiqləşdirmək imkanı yaradır. Eyni zamanda erməni xalqının rasionallığına ümid edir".

*****

Aleksandr Duqinin müsahibəsindən bir daha aydın olur ki, rəsmi Moskvanın Qarabağ məsələsinə yanaşması xeyli dərəcədə Paşinyan iqtidarının xarici siyasətdə əsas oriyentir kimi Qərbi, yoxsa Rusiyanı seçəcəyindən asılı olacaq. Lakin Dağlıq Qarabağ ətrafında 5 rayonun nəyin qarşılığında, hansı şərtlər daxilində qaytarılmasının da Azərbaycan üçün prinsipial əhəmiyyəti var.

Əgər söhbət konfliktin ədalətli həllindən yox, dondurulmasından gedəcəksə, yaxud orta-uzaq perspektivdə ərazi bütövlüyümüzə və suverenliyinə təhlükə yaranacaqsa, müharibə hüququ əlimizdən alınacaqsa və ya Dağlıq Qarabağın Azərbaycandan daha da uzaqlaşmasına və sırf Rusiyanın maraqlarına xidmət edən bir həll planı olacaqsa, qısası, 5 rayon tələdə "pendir" rolu oynayacaqsa, belə "güzəşt" bizə lazım deyil.

Azərbaycanın istəyi budur ki, konflikt beynəlxalq hüquq normalarına uyğun, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 məlum qətnaməsi əsasında həllini tapsın. Yəni Bakı heç vaxt "torpaq əvəzinə torpaq" prinsipi üzrə problemin həllinə razı olmayacaq. Ondansa konflikt "donmuş" vəziyyətdə qalsa, yaxşıdır. Ən azı, o halda Azərbaycanın nə vaxtsa məsələni hərbi yolla həll eləmək hüququ olacaq.

**Zatən, Azərbaycan tərəfi beynəlxalq hüquqa söykənən bu prinsipial mövqeyini zaman-zaman bəyan edib. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycan torpaqlarında heç vaxt ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verilməyəcək, bunu gözləyənlər boşuna gözləyir. Bu, təkcə ölkə başçısının mövqeyi deyil, bütövlükdə Azərbaycan xalqının iradəsidir...**



# Azərbaycan Ordusunda "Ən yaxşı artilleriya divizionu" adı uğrunda yarışlar keçirilir

**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adını qazanmaq uğrunda yarışlar keçirilir.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, Azərbaycan Ordusunun özüyeriyən artilleriya divizionlarının cəlb olunduğu yarışlarda tədris-material baza öyrənilir, həmçinin zabitlərin və ixtisaslı mütəxəssislərin hazırlıq səviyyəsi yoxlanılır, fərdi və qrup şəklində normativlər qəbul edilir. Nəticələr yarışların rəhbərliyi tərəfindən təhlil edilərək ümumiləşdirilir və qiymətləndirilir.

**Avtomatik idarəetmə sistemləri ilə təchiz edilmiş, yüksək dəqiqliklə atəş açmaq imkanına malik olan, eyni zamanda döyüş hazırlığı səviyyəsi ilə müsbət tərəfə fərqlənən divizionlar, döyüş atışları icra edərkən əla nəticələr göstərmək və səhra vərdişlərini təkmilləşdirmək uğrunda yarışırlar.**



# Ağlar ağlayır, qaralar mat qalır...

Samir SARI

**Bu ölkədə Şəhriyar Məmmədyarovu mənim qədər çox istəyən iki adam var. Adlarını da çəkə bilərəm. Biri Yadigar Sadıqovdur, o biri Dürdanə Ramazanlı.**

Hələ 3 həftə əvvəl biz məşhur şahmatçımızı "millətin zəka simvolu" hesab edərək, onun uğurları ilə qürur duyduğumuzu bildirmişdik. Şübhəsiz ki, ona öygülər yağdıran, qələbələrindən fərəhlənən başqaları da vardı.

Ancaq şəxsən mən heç istəməzdim ki, Şəhriyarın adı pul-para məsələsinə görə hallansın. Mən onu zəkada riyaziyyatçı Qriqori Parelman kimi zənn edirdim.

Bilməyənlər üçün Parelmanın kim olduğuna dair qısaca bilgi verim, türkün sözü.

Parelman sur-suyumundan məşhur müğənni Demis Russosa oxşayan riyaziyyat dühasıdır, Puankare hipotezini isbat etmiş adamdır. Hazırda onun 52 yaşı var, qapalı həyat tərzi yaşayır. 5-6 il qabaq İspaniya kralı ona təxminən 1 milyon dollarlıq mükafat verib, o da götürməyib. Bu "acgöz yəhudi" deyib ki, o qədər pulu neynirəm, dərs deyirəm, qazanıram.

Əslində Şəhriyar Məmmədyarovun Parelman kimi olmaması sevindiricidir, deməli, həmvətənimizin ağlı daha yaxşı işləyir. Deyim ki, bu xasiyyətinə görə çoxları Parelmanı səy hesab edir, düşünürlər ki, ağıllı adam o qədər puldan imtina etməz.

Amma görünür, Parelman başqa cür dühadır, Şəhriyar da başqa cür. Onların ortaq yönləri odur ki, başları bir neçə milyard insanın başından iti işləyir. Fərqli yönləri isə odur ki, biri asketik həyat tərzini üstün tutur, o biri də hesab edir ki, sponsoru olsa daha çox pul qazanar.

Bu düşüncənin ikisini də normal qəbul etmək olarmı? Olar. Müstəsna qabiliyyətinə görə çox qazanmağa, yaxşı yaşamağa çalışmaq ayıb deyil. Eyni zamanda məsələyə Aşıq Alı kimi yanaşmaq da ayıb sayılmaz. Klassik aşığımız hələ iki yüz il bundan qabaq deyib ki, "yığdım bu dünyanın varın-dövlətin, əllini aşırdım, yüzə nə qaldıE. Bir gün eşidərsiz Alı da köçdü, sındı telli sazı, tazanə qaldı".

Yəni aşıq demək istəyir ki, istər milyarder ol, istər kasıbın biri, son eynidir, ona görə də çox da şey eləməyin.

Burası heç. Amma baxaq görək, kim haqlıdır. Şəhriyar deyir, çox əziyyət çəkirəm, baş sındırıram, bezmişəm, jurnalist niyə bu qədər çox oyun oynadığını soruşanda deyə bilmirəm ki, puldan ötrü oynayıram.

Burada bir haşiyə. Bir dəfə daş karxanasında çalışan, gündə yük maşınlarının kuzovuna 15-20 ton daş yükləyən, günə 20 manat zor-bəla qazanan əli qabarlı fəhləyə ürəyim yandı, soruşdum ki, niyə bu qədər işləyir. O da qürurla cavab verdi ki, puldan ötrü işləyir, ailəni-uşağı dolandırmalıdır, ya yox.

Razılaşaq ki, sərin yerdə, rahat masa arxasında oturub 5 saat baş sındırmaqla istidə-soyuqda 10 saat boyunca yük maşınlarına daş yükləmək eyni cür əziyyətli iş deyil. Hərəsinin öz çətinliyi var. Amma birinin qazancı 20 manat, o birinki 35 min avro olanda və ortaya 3500 dəfəlik fərq çıxanda, birinci həyatından gileylənməlidir, yoxsa ikinci?

Bunu da bükək qoyaq qırağa. Hökumət səlahiyyətliləri də deyir ki, Şəhriyarın sponsoru var və o, Azərbaycan dövlətidir. Yetkililər indiyədək ona çəkilən məsrəfləri sadalayırlar: inişil yarışlara qatılmasına 250 min manat vermişik; keçən il 200 min ayırmışıq; ev bağışlamışıq və sair və ilaxır.

Sovet kommunistlərinin sözü olmasın, dünənki işinizə görə sağ olun, bu günkünə cavab verin. Fakt budur ki, Şəhriyarla eyni yarışa qatılan qrossmeysterlərin sponsoru, cah-cəlalı, milyonları var, amma bizimki o tərəqqidə deyil. Arada disbalans var və bu, şahmatçımıza pis təsir edir, onun qələbə əzmini öldürür.

Uzun sözün kəsəsi, məsələ belədir ki, Şəhriyar bəyin ayaq uzatdığı adamların ölkəsi ilə Azərbaycanın arasında böyük fərqlər olduğu kimi, şahmatçıların maddi durumu, qazancı da eyni deyil. Məsələn, bu saat Qərbi Avropada yaxşı futbolçunun aylıq qazancı bir neçə milyondur, bizdə isə 3-4 min manatdır. Oralı, buralı alimlərin, həkimlərin, müəllimlərin, məmurların maaşları arasında da fərqlər böyükdür. O gün Brüsselə qonaq getmiş bir həmvətənimiz yazmışdı ki, burda saç kəsdirməyin qiyməti ən ucuz yerdə 60 avrodur, yəni bizim pulla 120 manat. Amma bizdə 12 manatla bu işi həll etmək mümkündür.

**Yəni nə Şəhriyarda günah var, nə də "ona hər şey etmişik" deyənlərdə. Günahın hamısı Surət Hüseynovdadır.**

---

**Son günlərdə Əfqanıstan yenidən müharibə meydanına çevrilib. Əfqanıstan ordusu geridə qoyduğumuz şənbə və bazar günləri ərzində ölkənin 9 müxtəlif vilayətində əməliyyatlar aparıb. Əməliyyatlar nəticəsində Qəzni vilayətinin "Taliban" qiyamçı qruplaşmasının nəzarətindəki Muqor şəhəri azad edilib.**



# Əsgərlərimizin olduğu Əfqanıstanda müharibə fitilini kim çəkir?

## **Elxan Şahinoğlu:** "Rusiyanın "Taliban"la gizli təmasları var" **Elçin Mirzəbəyli:** "Moskvanın arqumentləri daha inandırıcı görünür"

Rəsmi rəqəmlərə əsasən əməliyyatlar zamanı 39 "Taliban" qiyamçısı və 9 İŞİD terrorçusu məhv edilib, həmçinin daha 9 terrorçu və qiyamçı yaralanıb.



Əfqanıstanda baş verənlər Azərbaycanda da ciddi narahatlıqla qarşılanıb. Buna səbəb də, bu ölkədə sülhməramlı qüvvələrimizin xidmət etmələridir. Məlumdur ki, Azərbaycan təkcə terrorizmə qarşı mübarizə adı altında Əfqanıstana sülhməramlılarını göndərməyib, eyni zamanda, yükdaşımalar üçün öz ərazindən istifadə üçün Amerikaya icazə verib.

Əfqanıstandakı son qarşıdurmada "Rusiya izi" də axtarılır. Rəsmi Moskvanın hələ də Əfqanıstana təsir imkanlarının qaldığı bir faktdır. Bunların fonunda belə iddialar var ki, bu hadisələri Kreml Qərb dünyası tərəfindən gələn təzyiqlərin qarşısını almaq, bir növ diqqətlərin başqa istiqamətlərə yönəlməsi üçün təşkil edib.

"Taliban" sözçüsü Zabihullah Mücahid, sentyabrın 4-də Moskvada keçirilməsi planlaşdırılan Əfqanıstan sülh danışıqlarında iştirak edəcəyini bildirib.

Deyerler.org xəbər verir ki, "Mehr" agentliyinin müxbirinə danışan Mücahid, "Taliban" təşkilatının Əfqanıstandakı məsələlərlə bağlı fikirlərinin Moskvadakı sülh danışıqlarında elan ediləcəyini qeyd edib: "Moskva sülh danışıqları müzakirə yox, bəlkə fərqli fikirlərin nəzərə alınması üçün keçiriləcək. Biz əvvəllər də bu kimi konfranslarda iştirak etdik. Məsələn, Tokio, Paris danışıqları".

"Niyə ABŞ və Əfqanıstan hökumətləri bu konfransda iştirak etmək istəmir" - sualına "Taliban"ın sözçüsü belə cavab verib: "Moskva danışıqlarına Vaşinqton və Kabil rəhbərliklərinin iştirak etməsinin bizim üçün heç bir əhəmiyyəti yoxdur. Biz Moskvada keçirilməsi gözlənilən konfransda öz siyasi mövqelərimiz və Əfqanıstandakı son hadisələr haqqında məlumat verəcəyik".

Qeyd edək ki, Rusiya aralarında ABŞ-ın da olduğu 12 ölkəni sülh danışıqlarına dəvət edib. Ancaq Vaşinqton və Kabil rəhbərlikləri dəvətə müsbət yanaşmadıqlarını açıqlayıblar.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirdi ki, 2001-ci ildə terrorçuların Amerikaya hücumlarından sonra Birləşmiş Ştatların iki hədəfi var idi: "Birinci hədəf Əfqanıstan, digəri isə İraq idi. Çox təəssüf ki, Əfqanıstan terrorçulardan tam azad olunmadı. Faktiki olaraq, hazırda "Taliban" ölkənin yarısına hakimdir. Gündüzlər hökumət nəzarət etsə də, faktiki gecələr həmin ərazilər talibançıların nəzarətinə keçir. Hər halda hələ də "Taliban"ın gücü var. Bir çox ölkə bu güclə hesablaşır. Gələn məlumatlara görə, Rusiyanın "Taliban"la gizli təmasları var. Son zamanlar rus rəsmiləri, diplomatları da bunu etiraf etməyə başlayıblar. Düzdür, Rusiyanın məqsədlərindən biri də Amerikanın Əfqanıstandakı problemlərini dərinləşdirməkdir. Bir dəfə SSRİ də eyni bataqlığa batıb. Məhz bu səbəbdən sovetlər dağıldı. SSRİ hücum etdi, çoxsaylı əsgəri məhv oldu. Nəticədə geri çəkilən sovetlər qısa müddətdən sonra tarix oldu. İndi Rusiya istəyir ki, ABŞ eyni taleyi Əfqanıstanda yaşasın. Çalışır ki, Amerika Əfqanıstanda ilişib qalsın, problemləri getdikcə dərinləşsin. Əfqanıstanı ram etmək tarixən heç bir dövlətə nəsib olmayıb. İndi də ola bilsin ki, Rusiyanın bəzi dairələri Əfqanıstanı qarışdırmaq vasitəsilə Amerikanın problemlərini dərinləşdirmək istəyirlər. Bu Azərbaycanın da maraqlarına uyğun deyil. Çünki Əfqanıstan bizə qardaş dövlətdir. Azərbaycan bu ölkəyə dəstək verir. Amerika yüklərini ölkəmiz üzərindən daşıyır. Eyni zamanda, sülhməramlılarımız NATO-nun tərkibində orada xidmət edirlər. Digər tərəfdən, Azərbaycanın özü birbaşa Əfqanıstana maliyyə yardımları ayırır. Əfqan rəsmilərinin ölkəmizdə idarəçilik üçün kursları təşkil olunur. Azərbaycan Əfqanıstanın təhlükəsizliyində maraqlıdır. Açığı deyim ki, Əfqanıstan məsələsində Azərbaycanın maraqları Amerika ilə üst-üstə düşür".

Politoloq Elçin Mirzəbəyli məsələni bu cür şərh etdi: "Sentyabrın 4-də Moskvada Əfqanıstanla bağlı məsləhətləşmələrin keçiriləcəyi və məsləhətləşmələrdə Əfqanıstan da daxil olmaqla 12 ölkənin təmsilçisinin, həmçinin "Taliban" hərəkatının nümayəndələrinin iştirakı gözlənilir. Moskva məsləhətləşmələrin rəsmi Kabulla "Taliban"ın mövqelərinin yaxınlaşdırılmasına xidmət etdiyini bildirir. Belə bir məqamda Darkad qəzasında "Taliban"ın mövqelərinin bombalanması və bunun Tacikistan və Rusiya HHQ tərəfindən edildiyinin bildirilməsi maraq doğurur. Kreml indiki məqamda belə bir addımın atılmasının ilk növbədə Rusiyanın maraqlarına zidd olduğunu bildirir və faktı təxribat kimi qiymətləndirir. Hazırda baş verənlərlə bağlı konkret fikir söyləmək çox çətindir. Tacikistanın Əfqanıstanla sərhədində KTMT-nin mandatı ilə Rusiya hərbçilərinin olduğu kimsəyə sirr deyil. Amma onlar Tacikistanın sərhədlərini qoruyur və silahlı qrupların, terrorçuların ölkə ərazisinə daxil olmasının qarşısını alırlar. İndiki məqamda Rusiya HHQ-nin Əfqanıstan ərazisinə aviazərbələr endirməsi inandırıcı görünmür. Azərbaycan sülhməramlıları Əfqanıstanda BMT-nin mandatı ilə sülhyaratma missiyasının tərkibində iştirak edirlər. Onları hər hansı bir təhlükənin gözlədiyini düşünmürəm. Azərbaycan hərbçilərinin beynəlxalq sülhyaratma missiyalarının tərkibində iştirak etmələrinə isə olduqca müsbət yanaşıram. Ümumi mənzərə Rusiyanın hazırda Əfqanıstanda vəziyyətin gərginləşməsində maraqlı olmadığını təsdiqləyir. Hesab etmirəm ki, Əfqanıstanda gərginliyin artması Rusiyanın maraqları çərçivəsindədir. Mövcud insidentlə bağlı Moskvanın arqumentləri daha inandırıcı görünür. Azərbaycanın hava məkanından Əfqanıstana humanitar yüklər daşınır və bu proses Azərbaycanın NATO ilə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Bu əməkdaşlıq isə hər hansı bir dövlətin əleyhinə yönəlməyib".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Xarici borcumuzu necə qaytaracağıq-yeni strategiya

## Həm xarici, həm daxili borclar artacaq, amma...

**2018-ci il 1 yanvar tarixinə Azərbaycanın dövlət borcunun ümumi məbləği 17.007,4 milyon manat təşkil edib. "Yeni Müsavat" xəbər verir ki, bu barədə məlumat prezident tərəfindən təsdiqlənən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da əksini tapıb.**

**Sənəddən aydın olur ki, ümumidövlət borcunun 15 milyard 978,1 milyon manatı (9 milyard 398,3 milyon ABŞ dolları) və ya 93,9 faizi xarici, 1 milyard 029,3 milyon manatı və ya 6,1 faizi daxili dövlət borcudur.** Xarici dövlət borcunun ÜDM-ə nisbəti 22,8 faiz, daxili dövlət borcunun ÜDM-ə nisbəti 1,5 faiz olmaqla, ölkənin məcmu dövlət borcunun 2017-ci ildə ÜDM-ə nisbəti 24,3 faiz təşkil edib. Məcmu dövlət borcunun ölkənin valyuta ehtiyatlarına nisbəti isə 23,8 faiz olub. Xarici dövlət borcunun 3 milyard 331,4 milyon dolları və ya 35,5 faizi xarici valyuta nominallı dövlət qiymətli kağızlarından, 5 milyard 510,4 milyon dolları və ya 58,6 faizi hökumətin birbaşa cəlb etdiyi kreditlərdən, 556,5 milyon dolları və ya 5,9 faizi isə xarici dövlət borcu hesab edilən şərti öhdəliklərdən ibarətdir.

**Azərbaycanın xarici dövlət borcunun 45,1 faizi hesabat dövründən sonra 10 ilə qədər olan müddətdə, 51,2 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 3,7 faizi isə 20 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.** Dəyişkən faiz dərəcəsi ilə olan borc öhdəliyi xarici borc məbləğinin 52,8 faizini, sabit



dərəcə ilə olan isə 47,2 faizini təşkil edir.

**2018-ci il 1 yanvar tarixinə daxili dövlət borcunun 748,3 milyon manatını və ya 72,7 faizini dövlət istiqrazları, 52,7 milyon manatını və ya 5,1 faizini Mərkəzi Bank qarşısında öhdəliklər, 228,3 milyon manatını və ya 22,2 faizini isə daxili dövlət borcu sayılan şərti öhdəliklər təşkil edib.** Daxili dövlət borcu üzrə öhdəliklər tamamilə sabit faiz dərəcəsi ilə cəlb edilib.

**Mövcud portfel üzrə xarici dövlət borcunun 2018-ci ildə nominal ifadədə artaraq 9,42 milyard ABŞ dolları olacağı proqnozlaşdırılır.** Bu artımın əsas səbəbi əvvəlki illərdə imzalanmış kredit müqavilələri üzrə nəzərdə tutulan vəsaiti cari tarixə kreditor qurumların tam ayırmaması və bu istiqamətdə 2018-ci ildə istifadə olunacaq vəsaitin həmin öhdəliklər üzrə həyata keçiriləcək ödənişlərə nisbətən daha çox olmasıdır. Lakin mövcud (cəlb edilmiş) xarici dövlət borcunun 2019-cu ildə 9,0 milyard ABŞ dollarından 2025-ci ildə 3,8 milyard ABŞ dollarınadək azalacağı gözlənilir. İmzalanmış mövcud kredit müqavilələri üzrə xarici dövlət borcuna xidmət xərclərində 2024-cü ilə nəzərdə tutulan kəskin artımın səbəbi 2014-cü ildə hökumət tərəfindən beynəlxalq maliyyə bazarlarında buraxılmış 1 milyard 250,0 milyon ABŞ dolları məbləğində xarici valyuta nominallı dövlət qiymətli kağızlarının 2024-cü ildə birdəfəlik ödənişlə geri qaytarılacağıdır.

**Strategiyada qeyd olunur ki, son illərdə dünya bazarlarında neftin qiymətində yaranan qeyri-sabitlik və bu səbəbdən icmal büdcə gəlirlərinin azalması xarici valyutada əlavə borc öhdəliklərinin yaradılmasına xüsusi diqqətlə yanaşmanı zəruri edir.** Buna görə də 2018-ci ildə və növbəti illərdə yalnız bir sıra prioritet hesab edilən layihələr üzrə birbaşa və dövlət zəmanəti əsasında kredit vəsaitinin cəlb edilməsi nəzərdə tutulur.

**Ölkə səviyyəsində prioritet hesab olunan layihələr maliyyələşdirildikdən sonra xarici dövlət borcunun ÜDM-ə nisbətinin 2019-cu ildə ən yuxarı həddə çataraq 23,0 faiz olacağı, lakin dinamikanın sonradan azalan tendensiya üzrə davam edəcəyi gözlənilir.** Belə ki, növbəti illərdə xarici dövlət borcu üzrə geri qaytarılan öhdəliklərin cəlb olunan yeni borclardan çox olması ilə tədricən bu göstəricinin azalaraq 2021-ci ildə 19,5 faiz, 2025-ci ildə isə 12,0 faiz olacağı proqnozlaşdırılır.

Beləliklə, mövcud kreditlər üzrə nəzərdə tutulan vəsaitdən istifadə, eyni zamanda, prioritet layihələrin maliyyələşdirilməsi məqsədilə yeni borcalmalar 2019-cu ildə ümumi dövlət borcunun (cəmi xarici və daxili dövlət borcu) ÜDM-ə nisbətinin artaraq 24,7 faiz olmasına gətirib çıxarsa da, əlavə borcalmaların həyata keçirilməməsi və dövlət borcuna xidmət xərclərinin cəlb olunacaq vəsaitdən çox olması ilə dövlət borcu portfelinin həcmi azalacaq və 2020-ci ildə 10,7 milyard ABŞ dollarından 2025-ci ildə 7,7 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək.

**Bundan əlavə, daxili dövlət borcunun da artması gözlənilir.** Belə ki, sənədə görə, daxili bazarın inkişafını təmin etmək məqsədilə daxili dövlət borcunun illər üzrə tədricən artması proqnozlaşdırılsa da, bu borcun hər il emissiya ediləcək dövlət istiqrazları hesabına yenidən maliyyələşdirilməsi nəticəsində dövlət büdcəsi üzərinə ağır yük düşməyəcəkdir. Lakin bununla belə, məlum olduğu kimi, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə məxsus problemli aktivlərin alınmasının və idarə edilməsinin maliyyələşdirilməsi üçün dövlət zəmanəti ilə ümumi həcminin yuxarı həddi təqribən 10,0 milyard manat olan istiqrazların buraxılışını həyata keçirib və bu istiqrazlar üzrə əsas borc ödənişləri 2020-ci ildən etibarən başlayacaq. Strategiyada bu öhdəliklərə "Aqrarkredit" QSC tərəfindən xidmət ediləcəyi nəzərdə tutulub. Lakin Cəmiyyət borca xidmət xərclərini ödəməyəcəyi təqdirdə, zaminlik şərti əsasında öhdəliklərə dövlət büdcəsindən xidmət edilməsi fiskal yükün artmasına gətirib çıxara bilər.

❑ **İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

# Azərbaycanda cinayət törətmiş şəxslərlə bağlı məlumat 100 il saxlanacaq

## Qanun sentyabrın 1-dən qüvvəyə minəcək

**"Azərbaycan Respublikasında Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" qanun imzalanıb. Bu qanun Azərbaycanda dövlət daktiloskopik və genom qeydiyyatının məqsədini, prinsiplərini və növlərini müəyyən edir, habelə bu sahədə yaranan ictimai münasibətləri tənzimləyir.**

Qanuna əsasən, ağır və ya xüsusilə ağır, həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə cinayət törətməkdə şübhəli, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuş şəxslər, şəxsiyyətinin başqa üsullarla müəyyənləşdirilməsi mümkün olmayan, habelə səhhətinə və ya özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan şəxslər, xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumları (bioloji valideynlər və ya övladları ilə birlikdə ər (arvad) məcburi dövlət genom qeydiyyatından keçirilirlər. Naməlum meyitlər də genom qeydiyyatından keçirilməlidirlər.

Bu şəxslərdən və naməlum meyitlərdən bioloji material (Aşkar olunmuş insandan, naməlum meyitdən DNT analizinin keçirilməsi məqsədilə götürülmüş qan, tüpürcək, tük, dırnaq, dəri, tər, sperma, orqanizmin digər ifrazatları, diş, sümük və



digər toxuma nümunələri) müvafiq icra hakimiyyəti orqanı tərəfindən götürülür.

Qanunda qeyd olunub ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən əldə edilən bioloji material və məlumat DNT analizinin aparılması, DNT profilinin əldə olunması və DNT Məlumat Bankında saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına göndərilir. Göndərilən bioloji materialın məlumatından bu qeydlər olmalıdır: Məcburi dövlət genom qeydiyyatından keçirilən şəxsin fərdi identifikasiya nömrəsi, soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi, doğulduğu yer və tarix, şəxsin yaşadığı yer üzrə qeydiyyatı haqqında məlumatlar, genom qeydiyyatının aparılmasının əsası və tarixi, bioloji materialı götürmüş, məlumatı hazırlayan icra hakimiyyəti orqanının adı.

DNT analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

DNT Məlumat Bankında əksini tapmış məlumatların saxlanılması müddətləri də müəyyənləşib. Belə ki, ağır və ya xüsusilə ağır, həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə cinayət törətməkdə şübhəli, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuş şəxslərlə bağlı məlumatlar onların doğum tarixindən 100 il müddətində və ya ölüm faktı müəyyən edilənədək, xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumları (bioloji valideynlər və ya övladları ilə birlikdə ərin (arvad)) ilə bağlı məlumatlar itkin düşmüş şəxslərin doğum tarixindən 100 il müddətində və ya onun şəxsiyyəti müəyyən edilənədək, şəxsiyyətinin başqa üsullarla müəyyənləşdirilməsi mümkün olmayan, habelə səhhətinə görə özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan şəxslər, naməlum meyitlər barədə məlumatlar isə onların şəxsiyyəti müəyyən edilənədək (lakin 80 ildən çox olmamaqla) saxlanılır.

Bundan başqa, cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya məhkum olunmuş, habelə inzibati qaydada həbs edilmiş şəxslərin, müvəqqəti və ya daimi yaşamaq icazəsinin alınması üçün əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin (15 yaşınadək uşaqlar istisna olmaqla), Cinayət, İnzibati Miqrasiya məcəllələrinə uyğun olaraq Azərbaycanın hüdudlarından kənara çıxarılmalı olan, habelə qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin, Azərbaycanda siyasi sığınacaq almaq, habelə qaçqın statusu əldə etmək barədə vəsatət vermiş şəxslərin də belə qeydiyyatı aparılacaq.

Sənədə əsasən, naməlum meyitlər də məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilməlidirlər.

Qanunda bildirilib ki, dövlət daktiloskopik qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən alınmış daktiloskopik məlumatın (insanın şəxsiyyətini müəyyən etməyə imkan verən onun əl barmaqlarındakı papilyar naxışların quruluşunun xüsusiyyətləri haqqında məlumat) maddi daşıyıcılarının nüsxəsi ölkə üzrə vahid məlumat bankında saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına göndərilir.

Həmin nüsxədə bunlar qeyd olunmalıdır: Məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilmiş şəxsin fərdi identifikasiya nömrəsi, soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi, doğulduğu yer və tarix, şəxsin yaşadığı və olduğu yer üzrə qeydiyyatı haqqında məlumatlar, qeydiyyatın aparılmasının əsası və tarixi.

Dövlət orqanları xidməti məxfilik rejimində daktiloskopik məlumatların mühafizəsini təmin edir, onların vəzifəli şəxsləri isə həmin məlumatların saxlanılması qaydalarını pozmağa və qeyri-qanuni istifadə edilməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Qanun bu həftədən - sentyabrın 1-də qüvvəyə minəcək. Bundan sonra isə hazırda qüvvədə olan "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" qanun isə qüvvədən düşəcək.**

YENİ MÜSAVAT
N 181 (7070) 29 avqust 2018

**Rusiya Daxili İşlər Nazirliyi(DİN) cinayətlərin üstünün tez bir zamanda açılması üçün yeni qayda müəyyən edib. Rusiya mətbuatı bu xəbəri "qoca nənələr də razı qalacaqlar" yarımbaşlıqları ilə dərc etməklə qaydanın cəmiyyətdə birmənalı qarşılanmadığına ironik vurğu ediblər.**



# Rusiyada xəbərçilik pullu oldu, bəs bizdə?

## Mahmud Hacıyev: "Azərbaycanda belə bir qaydanın tətbiqi mümkündür"

Yeni qaydaya görə hər hansı bir cinayətlə bağlı hüquq-mühafizə orqanına müraciət edən şəxsə pul veriləcək. Bunun üçün məlumat verən şəxs Rusiya DİN-in 02 və ya 112 zəng mərkəzinə müraciət edib qeydiyyatdan keçməli və cinayət haqda məlumat verməlidir. Digər formada çatdırılan məlumatlar anonim məlumat kimi qeydə alınacaq və belə məlumatlara görə pul ödənməyəcək. Cinayəti törətmiş şəxs saxlanılandan sonra onun saxlanılması barəsində məlumat və cinayətin üstünün açılmasına görə ödənilmiş məbləğ Rusiya DİN-in saytında yer almalıdır. Hər bir açılmış cinayətə görə konkret məbləğ ödənilməsi nəzərdə tutulur. Ödənc 50 min(1250 manat) rubldan 10 milyon(252 min manat) rubla qədər müəyyən olunub. İqtisadi cinayətlərlə bağlı məlumat verənlər daha böyük məbləğlər ala biləcəklər.

Bu qaydanın əleyhdarları deyirlər ki, bu cür qaydalar cəmiyyətdə lüzumsuz xəbərçiliyin geniş yayılmasına səbəb olacaq. Rusiyanı ötən əsrin 30-cu illərindəki danosçuluğun bürüyəcəyini söyləyirlər.

Tərəfdarları isə bildirirlər ki, qaydanın müəyyən olunması cinayətlərin üstünün açılmasına, xüsusilə iqtisadi sahədə baş verən cinayətlərin faş olmasına geniş imkanlar yaradacaq.

Rusiyadan savayı belə qaydanın olub-olmamasını aydınlaşdırmaq üçün kiçik bir araşdırma apardıq. Məlum oldu ki, bir çox dövlətlərdə belə qaydalar illərdir ki, işləyir.

Məsələn, Finlandiyada hamı bu işlə məşğuldur. Xəbərçilik, danosçuluq anlayışı yoxdur. Qanunsuz hərəkət törədən qonşu, qohum barədə məlumat vətəndaşlıq borcu hesab olunur. Məlumat verən bunun üçün hər hansı mükafat da gözləmir. Finlandiyada ictimai nəzarət bu qaydada gerçəkləşdirilir və hamı özünü buna hazır bilir. Nəsə düzgün etməsən, kimsə sənin haqqında xəbər verər. Oğurluq, korrupsiya, zorakılıq faktları ictimailəşməsi düşüncəsi hakimdir deyə belə hallar haqda məlumat vermək adi sayılır. Cənubi Koreyada qanunsuz əməllər haqda məlumat vermək çox sərfəlidir. Xüsusi ilə bu məlumat korrupsiya və ya dövlət vəsaitinin təyinatına uyğun istifadə olunmaması halları ilə bağlıdırsa 2 milyon dollara qədər qazanc əldə edə bilərsən. Almaniyada danosçuluq yalnız korrupsiya ilə mübarizə məsələsində bəyənilir və hər bir idarədə bunun üçün xüsusi səlahiyyətli şəxs var. İşçilər də bütün şübhəli məqamlar barədə həmin şəxsə məlumat verməyə həvəsləndirilir - yəni pul mükafatı alırlar.

*Bəs Azərbaycanda belə bir qayda varmı? Cinayət haqda məlumat vermiş şəxs buna görə mükafat olaraq pul alırmı?*

**Sabiq polis rəisi Mahmud Hacıyev** deyir ki, Rusiyada belə bir qaydanın müəyyən edilməsi cinayətlərin üstünün tez bir zamanda açılmasına geniş imkanlar yaradacaq: "Rusiya nəhəng ölkədir. Orada cinayətlərin açılması və baş verə biləcək cinayətlərin qarşısının alınması baxımından belə bir addımın atılması müsbət haldır. Rusiyada bağlı qalan, baş verə biləcək cinayətlərin sayı da çoxdur. Bu qaydanı müəyyən etməklə həvəsləndirmə metodundan istifadə edirlər. Bu qaydanın müəyyən edilməsi ictimaiyyətin hüquq-mühafizə orqanlarına cinayətlərin üstünün açılmasında aktiv kömək etməsinə yol açacaq. Rusiyada cinayətin açılmasına xidmət edən informasiyaya görə pulun ödənilməsi mexanizminin şəffaflığını təmin etmək üçün müəyyən edilən üsul da təqdirəlayiqdir. Bu, müsbət praktikadır və xarici dövlətlərdə, xüsusən ABŞ-da, Kanadada illərdir istifadə olunur. Rusiyada əvvəllər polisə cinayət haqda məlumat verənlərə təşəkkürnamə, "DİN-ə dəstəyə görə" medalı verilirdi. Artıq belə mükafatlandırma üsulları işə yaramır. Ona görə də konkret pul məbləğləri müəyyən ediblər. Məlumat verdin, cinayətin üstü açıldı, get pulunu al. Azərbaycanda belə bir qaydanın tətbiqi mümkündür. Amma Azərbaycan Rusiya kimi nəhəngin yanında balaca bir ölkədir. Azərbaycanda cinayətlərin üstünün açılması faizi də yüksəkdir. Bu qaydanın tətbiqi güc strukturunun və ölkə rəhbərliyinin iradəsindən asılıdır. Söhbət elə də az olmayan pul mükafatlarından gedir".

**Mahmud Hacıyev deyir ki, Azərbaycanda rezonans doğurmuş cinayətlərin açılmasında müstəsna məlumatlar vermiş şəxslərə pul mükafatlarının verilməsi praktikası var:** "Azərbaycanda bir neçə dəfə olub ki, rəsmi qaydada elan ediblər ki, filan cinayətlərin açılmasına xidmət edən real informasiya vermiş şəxsin adı anonim saxlanılmaqla pul mükafatı ödəniləcək. Azərbaycanda az da olsa, belə hallar olub".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Bayıl yamacında son durum: əhali qazın bərpasını istəyir

## Sakin: "Bu qədər camaata artıq 3 aydır ki, kirayə pulu ödənilmir"

**Bayıl yamacındakı sürüşmə zonasında yaşayan sakinlər yenidən çətin durumda qalıblar. Onlar bildiriblər ki, hazırda əksər sakinlərin kirayə pulu verilmir, evlərində isə kommunal xətlər olmadığı üçün yaşamaqda çətinlik çəkirlər.**



Məlumat üçün öncə xatırladaq ki, bu ilin qış aylarında Bayıl yamacında "Teleqüllə" ətrafındakı sürüşmə zonasında aktivlik müşahidə olunmuşdu. Nəticədə orada da 4 ev dağılıb, 2-si isə zərər görmüşdü. Ona görə də müvafiq qurumların iştirakı ilə bu ərazidə bütün kommunal xidmətlərin verilişi dayandırılıb, əhali isə 11 aylıq müddətə kirayə pulu verilməklə, köçürülmüşdü. Onların bir qismi verilən kirayə pulu ilə razılaşmadığı üçün evlərində yaşamaqda davam edirdilər.

"Yeni Müsavat"a daxil olan məlumata görə, hazırda əhalinin böyük əksəriyyəti öz mənzillərinə qayıdıb. Sürüşmə sahəsində heç bir aktivlik müşahidə olunmasa da, əhalinin taleyi ilə bağlı konkret qərar verilmir və vəziyyət günbəgün ağırlaşır.

**Sakin Elməddin Muradlı** qəzetimizə bildirdi ki, hazırda yalnız 3-4 ailə kirayə mənzildə yaşayır: "Digər ailələrin hamısı qayıdıb, öz evlərində yaşamağa davam edirlər. Çünki bir qədər qeyri-ciddi münasibətlər ortaya çıxdı. Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər dəfə rəy verir ki, ərazidə heç bir təhlükə yoxdur və vəziyyət stabildir. Ona görə də insanlar da haqlı olaraq bildirirlər ki, vəziyyət bu cürdürsə bizim qazımızı, suyumuzu verin. İnsanlar nə zaman səslərini qaldırırsa, müxtəlif qurumların adından 3 nəfər nümayəndə gəlib, metrəni əllərinə alıb, ölçü işinə başlayırlar. Bizə də deyirlər ki, sentyabr ayında köçəcəksiniz. Beləcə, camaatı sakitləşdirirlər, bir müddət sonra yenə əhali ayağa qalxanda, gəlib başqa bir söz deyirlər. Bu günlərdə gəlib, məhəllənin bir hissəsinin qaz xətlərini qoşublar. Təsəvvür edin ki, gəlib, sürüşmə zonasına yaxın olan məhəllədə qaz xətlərini qoşduqları halda, aşağı məhəllələr qazsız qalıb. Camaat da deyir ki, bizim evlər sürüşmə zonasından daha uzaqdadır. Qazın verilişini bərpa edirsinizsə, bizi niyə kənarda saxlamısız? Biz demirik ki, gedib kiminsə qazını kəsin. Deməyimiz odur ki, əgər qazın verilişi bütün məhəllələrdə bərpa olunsun. Bu günlərdə də məlumat yayıblar ki, köçürülmə işi Səbayel Rayon İcra Hakimiyyətinin bir ideyası idi və baş tutmadı, qeyri-müəyyən vaxta qədər təxirə salınıb. Camaat da bunu eşidir, narahat olur və gedib icra hakimiyyətinə etiraz edirlər ki, köçürmə yoxdursa, imkan verin öz evlərimizə qayıdaq. İndi yay ayları olduğu üçün camaat birtəhər yaşayır. Qışda vəziyyət necə olacaq? Yeməyi qaz balonu vasitəsilə bişiririk. O da hər 20 gündən bir boşalır, 20 manat verib, doldururuq. Yaxşı, bunun hamamı, başqa istilik sistemi olmalıdır. Onu necə edəcəyik? Kirayə pullarının da 70 faizini kəsiblər. İcra hakimiyyətinin, MİS-in adamları qapı-qapı gəzib, baxırlar ki, kim öz evində yaşayır. Siyahı hazırlayırlar və icra hakimiyyətinin qərarı ilə kirayə pulunu kəsirlər. İnsanlar da deyirlər ki, qazımızı, suyumuzu kəsmisiniz. Hamısını pulla alırıq. Bəs bunların pulu necə olsun? İkincisi də əhalini köçürən zaman əksəriyyətin mebelləri sınıb, yararsız hala düşüb. İnsanlar xeyli maddi zərər görüblər. Bu pulları kim ödəyəcək? İndi 200-250 manat kirayə pulu verirdilər, onu da MİS-lə Səbayel Rayon İcra Hakimiyyəti birləşib, kəsiblər. Hazırda 10-dan artıq ailə kirayə pulu ala bilir. Baş nazirin imzaladığı qərarı icra hakimiyyəti və yaxud da MİS necə dayandıra bilər? Bu pulu ilin axırına kimi verməlidirlər. Bununla bağlı baş nazirin imzalı sərəncamı var. Ancaq bu sərəncamı heçə sayırlar və bu boyda camaata artıq 3 aydır ki, kirayə pulu ödənilmir. Bizə heç kirayə pulu da lazım deyil. Kommunal xətlərimizi bərpa etsinlər, öz evimizdə normal şəkildə yaşayaq".

**❑ Əli RAİS, "Yeni Müsavat"**

# Lerikdə şəlalədə iki gənc batdı

Lerik rayonunun Qələbin kənd sakini Qabil Şalıyevun və Veri kənd sakini Xanbəy Sultanovun Qələbin kəndi ərazisindəki "Hacı şəlaləsi" adlandırılan çayda çimərkən suda boğulublar. Belə ki, gənclərdən biri çayda üzərkən boğulmağa başlayır. Həmin vaxt ətrafda onu telefonla çəkən dostları onun boğulduğunu görüb qışqırıblar. Bu zaman digər bir gənc onu sudan çıxarmaq üçün çaya girəndə o da boğularaq həyatını itirib. Sonradan hadisə yerinə FHN xilasedicilərı gəlsə də, gec olub. Xilasedicilər hər iki gəncin cəsədini sudan çıxarıblar.



YENİ MÜSAVAT
Son səhifə
N 181 (7070) 29 avqust 2018



## Bir göbələk 5 milyon dollar qazandırdı

Amerikanın Nyu York ştatındakı Saranak-Leyk kənd sakini hesab edir ki, göbələklər sayəsində lotereyadan 5 milyon dollar udub. Bu barədə lenta.ru saytı UPI-yə istinadən xəbər verir. 56 yaşlı Con Lyuis atasının reseptinə əsasən, spagetti üçün sous hazırlamaq istəyib. Bunun üçün cəmi bir inqrident - göbələk çatmırdı. O, göbələk almaq üçün mağazaya gedib və alıb. Pulun qalığı olaraq ona lotereya bileti veriblər. Nəticədə isə bilet uduşlu çıxıb. Luis qərarlaşdırıb ki, birdən-birə 5 milyon dollar almasın. Onun əvəzində isə o, pulu hissə-hissə, ildə 172 min dollar olmaq üzrə alacaq. Kişi aldığı pulun bir hissəsini qohumunun müalicəsinə həsr edəcək. Amma qalan məbləğlə nə edəcəyi barədə düşünməyib. "Mən ölənə qədər hardasa çalışmağı düşünürdüm. Amma bu pullar mənim qarşımda daha bir neçə qapı açacaq. Biz indi də öz həyatımızdan məmnunuq. Bu, çox yaxşı həyatdır.".

25 avqustda xəbər verildi ki, Massaçuset xəstəxanasının işçisi Mevis Vançik ABŞ-ın tarixindəki ən böyük cek potu udub. Bu, 758.7 milyon dollar olub.

# Kişi keçəldirsə, daha dominantdır

ABŞ-ın Pensilvaniya ştatında yerləşən Pensilvaniya Universitetinin araşdırmasına görə, keçəl kişilər saçlı həmcinslərilə müqayisədə daha dominatdır. Araşdırma qrupunun rəhbəri Albert Mannes "Time" jurnalına açıqlamasında bildirib ki, araşdırmanı 3 mərhələdə gerçəkləşdiriblər. A.Mannesin dediyinə görə, araşdırmanın ilk hissəsində rəyi soruşulanlara fərqli saçlara sahib 60 nəfərin şəkilləri göstərilib. Rəy sorğusuna qatılanların verdiyi ballara müvafiq olaraq bir-birinə yaxın illərdə dünyaya gəlmiş kişilərin keçəl olanları "ən güclü"lər olaraq qiymətləndirilib. İkinci mərhələdə isə sorğuya qatılanlardan eyni kişinin saçlı və saçsız halını göstərən şəkilləri dəyərləndirmələri istənilib. Nəticələrə görə, kişilərin saçsız görüntüsü saçlı görüntüsünə görə çox daha dominant olaraq qiymətləndirilib. Üçüncü mərhələdə isə anket iştirakçıları deyib ki, əslində onlar keçəl kişilərin daha xarizmatik və güclü olması qənaətindıdirlər.



# 20 ildir ki, ancaq toyuq naqqeti və kartof-fri yeyir



**Britaniyalı Rayan Hovart 20 ilə yaxındır ki, toyuq naqqeti və kartof-fridən başqa heç nə yemir. O, buna görə öz ailəsi ilə davadadır. Lenta.ru saytının xəbərinə görə, psixoterapevt ona başqa qidaların da dadına baxmağa kömək edib.**

Andover şəhər sakini 4 yaşından bəri fastfooddan başqa nəyinsə dadına baxmaqdan imtina edib. Hərdənbir 21 yaşlı Hovart steyk, sosialka, makaron və ya konfet yeməyə cəhd göstərirdi. Amma onun rasionunun 90 faizini naqetlər və kartof təşkil edirdi. Əgər ona bunun xaricində yemək üçün nəsə təklif etsəydilər, buna görə böyük isterikalaq qoparırdı. "Mən hamının yediyi yeməklərlə bağlı təklifi elə isterika ilə rədd edirdim ki, sanki normal adamlara həşərat yemək təklif olunub. Digər yeməklər mənə dəhşətli görünürdü".

**Hovart onun sağlamlığına görə narahat qalan valideynləri ilə çox tez-tez bu mövzuda dalaşırdı.** O, heç vaxt ailə yeməklərində iştirak etmir və ancaq öz otağında yeyirdi. Amma yaşı artdıqca bu qidalanma formasına görə Hovartın səhhətində ciddi problemlər yarandı. Psixoterapevtlə bir neçə seans ona digər qidalara qarşı baryeri aradan götürməyə yardım etdi. "Bu, qeyri-adidir, amma mənə daha öncə baxa bilmədiyim yeməklər xoş gəlir. Nəsə dadlıdır, nəsə yox, amma mən hər şeyin dadına baxıram", - bunu da britaniyalı deyib. O, qeyd edib ki, artıq özünü çox sağlam və enerji dolu hiss edir. Anası Kristian etiraf edib ki, oğlunun xasiyyəti yaxşıya doğru dəyişib. O, artıq mətbəxdə anasına kömək etməyə və ailəsi ilə birgə restoranlara getməyə başlayıb.

## Qoroskop




**QOÇ** - Bəzən səbəbsiz olan daxili gərginliyinizi aradan qaldırmaq istəyirsinizsə, qarşılıqlı münasibətlərinizi tənzimləyin. Bunu bacarsanız, nahardan sonra sürprizləriniz olacaq.

**BUĞA** - Bütün vaxtınızı istirahətə həsr edin. Çünki fəaliyyətlə bağlı hansısa yenilik gözlənilmir. Ulduzlar əsasən qarşılıqlı münasibətlərə və qohumluq əlaqələrinə fikir verməyi məsləhət görür.

**ƏKİZLƏR** - Ümumi ovqatınızın yüksək olacağını bildirən Göy qübbəsi bu günü zəngin keçirməyinizə şərait yaradacaq. Belə məqamlarda çoxdan görmədiyiniz yaxınlarınızı da ziyarət etməyə dəyər.

**XƏRÇƏNG** - İş-gücü bir tərəfə atın. Onsuz da neçə illərdir ora-bura qaçmaqla əsaslı dönüş yarada bilməmisiniz. Heç olmasa, bu təqvimi mənəvi rahatlığa, insanlarla ünsiyyətə həsr edin.

**ŞİR** - Hər hansı riskli sövdələşmələrə, o cümlədən pulla bağlı müzakirələrə ciddi yanaşmayın. Əsas diqqəti sağlıq durumuna və münasibətlərə yönəldin. Səhər saatlarında səfərə çıxmaq olar.

**QIZ** - Ulduzlar kin-kidurəti bir tərəfə atıb barışıq prosesinə qoşulmağınızı tələb edir. Ona görə də bu gündən deyilən istiqamətdə canfəşanlıq göstərməlisiniz. Cəfəng işlərdən uzaq olun.

**TƏRƏZİ** - Səhər saatlarında gözlənilən gərginliyi dəf etməyi bacarsanız, sonrakı müddətdə hər hansı nigarançılıq olmayacaq. Məhəbbət müstəvisində yaranmış boşluqları doldurun.

**ƏQRƏB** - Cəfəng işlərə aludə olmasanız, bu təqvimi tamamilə öz xeyrinizə dəyişə biləcəksiniz. Bu istiqamətdə əsas uğur maliyyə məsələlərində mümkündür və bütün hallarda təşəbbüskarlıq sizdə olmalıdır.

**OXATAN** - Yola çıxmaq fikriniz varsa, tərəddüd etməyin. Çünki bu gün rastlaşdığınız insanlardan xoş əhval alacağınız mümkündür. Pulu ilahiləşdirməyin. Çünki İlahi əlçatmaz yerdə durur.

**OĞLAQ** - İqlimin bir qədər mülayimləşməsi sizə əlavə enerji verməkdədir. Odur ki, bu vaxta qədər öhdəsindən gələ bilmədiyiniz planları sürətləndirməlisiniz. Dəvətləri qəbul edin.

**SUTÖKƏN** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlar vəd edir. Qalan sahələrdə isə ən yaxşı halda neytrallıqla üzləşəcəksiniz. Saat 14-18 arası sağlıq durumunuzu diqqətdə saxlayın.

**BALIQLAR** - Daxili dünyanızı anlayan insanlarla bir araya gəlin ki, ümumi süstlüyünüz ərisin. Çünki indi sizə daha çox mənəvi rahatlıq lazımdır. Şəxsi büdcənizə mümkün qədər qənaət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Hər yerə gecikdiyi üçün müalicə olunur



İşinə, dostları ilə görüşə, bütün iş görüşmələrinə hər zaman gecikən amerikalı Cim Dunbarın "xroniki gecikmə xəstəsi" olduğu üzə çıxıb. Ninevell Xəstəxanasındakı görüşə 20 dəqiqə gecikən 57 yaşındakı Dunbarda diqqət azlığı, hiperaktivlik problemi özünü göstərir. Həkimlər bunun beyindəki hansısa problemdən yaranmış olacağını təxmin edir. Onların dediyinə görə, bu adam işlərinin nə qədər vaxt aparacağını hesablaya bilmir. Jim Dunbar bildirib ki, məhz bu problemə görə bir çox işini itirib. Axşam saat 7-dəki kinoya gedə bilmək üçün səhər tezdən qalxan Cim hazırlaşmaq üçün özünə 11 saat versə də, yenə də kinoya düz 20 dəqiqə gecikir.Müalicəyə baxmayaraq, Dunbar hələ də gecikməmək üçün mücadilə verir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100